RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 200 (9079) CÜMƏ, 16 sentyabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistana səfər edib



### Səmərqənd Beynəlxalq Hava Limanında qarşılanma

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin dəvəti ilə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin sammitində iştirak etmək üçün sentyabrın 15-də Səmərqəndə səfərə gedib.

→ 2

## Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanın birinci Prezidenti İslam Kərimovun məqbərəsini ziyarət edib



Sentyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Səmərqənddə Özbəkistan Respublikasının birinci Prezidenti İslam Kərimovun məqbərəsini ziyarət edib.

→ 2

## Ən əziz dost və qardaş kimi...



Sentyabrın 15-də Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub.

→ 2



# "Dəmir yumruğ"un növbəti zərbəsi

Sentyabrın 12-da baş verən genişmiqyaslı təxribat isə Azərbaycan Ordusunun qətiyyətli cavab əməliyyatı həyata keçirməsini şərtləndirdi. Ümumiyyətlə, son bir ay ərzində Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Laçın, Gədəbəy, Daşkəsən və Kəlbəcər rayonları istiqamətində törətdikləri təxribatlar, Azərbaycan Ordusunun həmin rayonların ərazisindəki mövqelərinin müxtəlif çaplı silahlardan atəşə tutulması intensiv və sistematik xarakter daşıyırdı. Eyni zamanda Ermənistan tərəfindən Azərbaycan sərhədləri boyunca hücum təyinatlı silahların, ağır artilleriya vasitələrinin və şəxsi heyətin cəmləşdirilməsi müşahidə olunmaqda idi. Bütün bu faktlar bir daha ona göstərirdi ki, Ermənistan genişmiqyaslı hərbi təxribata hazırlaşır. Ermənistan bu kimi əməlləri ilə həmçinin Azərbaycanın işğaldan azad edilmiş sərhədyanı rayonlarında həyata keçirdiyi irimiqyaslı mülki infrastruktur layihələrinin icrasını ləngitmək və Azərbaycan sərhədləri yaxınlığında gərginliyi saxlamaq məqsədini güdürdü.

Bütün bunlar göstərir ki, Ermənistan uzun müddətdir revanşa hazırlaşır və bunun üçün həm siyasi, həm hərbi, həm də informasiya zəmini yaradırdı. Laçının təhvil verilməsi Ermənistan hakimiyyəti üçün növbəti ağır zərbə olmuşdu. Odur ki, daxili təzyiqləri neytrallaşdırmaq, ictimai rəyi dəyişdirmək üçün növbəti hərbi-siyasi avantüraya əl atmaq lazım idi. Sonuncu təxribat bunu təsdiqlədi. Lakin düşmən yenə də məkrli niyyətinə çata bilməyib ağır zərbə aldı.

→ 5

## İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi Ermənistanın Azərbaycan ilə sərhəddə törətdiyi təxribatları pisləyən bəyanat yayıb

"İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Baş Katibliyi Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədində törətdiyi hərbi təxribatdan ciddi narahatlığını bildirir və onu pisləyir".

AZƏRTAC xəbər verir ki, bu fikir İƏT Baş Katibliyinin bəyanatında yer alıb. Sənəddə deyilir: "Baş katiblik Ermənistan Respublikasını Azərbaycan, Ermənistan və Rusiya Federasiyası arasında 2020-ci il 10 noyabr tarixdə imzalanmış üçtərəfli Bəyanata, habelə Azərbaycan və Ermənistan arasında əldə edilmiş razılaşmalara uyğun olaraq öz öhdəliklərini yerinə yetirməyə və qanunsuz silahlı birləşmələri Azərbaycan ərazisindən çıxarmağa çağırır".

İƏT Xarici İşlər Nazirləri Şurasının 2022-ci il martın 22-23-də Pakistanın paytaxtı İslamabadda keçirilmiş 48-ci sessiyasında qəbul etdiyi qətnaməni xatırladan Baş katiblik Azərbaycan və Ermənistan arasında münasibətlərin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə hörmət əsasında normallaşdırılmasına çağırıb.

Baş katiblik həlak olanların ailələrinə, Azərbaycan dövlətinə və xalqına dərin hüznlə başsağlığı verib və yaralıların tezliklə sağalmasını diləyib.

## Azərbaycan və Türkiyə daim bir-birinin yanındadır



Sentyabrın 15-də Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

→ 3

## Çin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir



Sentyabrın 15-də Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü olub.

→ 3

## Azərbaycan Prezidenti İlham Əliyev "Qarabağ" klubunun inamlı qələbəsi ilə bağlı paylaşım edib

İlham Əliyev
@azpresident

Qarabağ (Azərbaycan) - Nant (Fransa) - 3:0.
Darmadağın!
Qarabağ Azərbaycandır!

## MÖHTƏŞƏM OYUN, TARİXİ QƏLƏBƏ



→ 11

### Milli Məclisin komitə iclasları keçirilib

→ 6

### Bəşəriyyət daha bir təhlükəni də geridə qoyur

Koronavirusa yoluxma və ölüm halları son həftədə azalıb

→ 12

### Ağalıda 29 ildən sonra ilk zəng çalındı

→ 8

### Xalq sülh, hərbi xunta isə revanş istəyir

Ermənistanda başlanan etiraz dalğası ölkəni yeni xaosa sürükləyir

→ 8

### IGB-nin gələn ay kommersiya fəaliyyətinə başlaması gözlənilir

→ 9

### Planetimizin xilaskarı

Ozon qatının bəşəriyyət üçün çox böyük əhəmiyyəti var

→ 12

## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri

# Səmərqənd Beynəlxalq Hava Limanında qarşılanma






*Əvvəli 1-ci səh.*

Səmərqənd Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşıladılar.

*AZƏRTAC*

# Ən əziz dost və qardaş kimi...



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, Prezident Şavkat Mirziyoyev dövlətimizin başçısını Özbəkistanda salamlamaqdan məmnunluğunu bildirdi, Azərbaycan Prezidenti İlham Əliyevin iyunda Özbəkistana dövlət səfərini xatırlatdı. Özbəkistan Prezidenti dövlət səfəri zamanı müəyyənləşdirilən istiqamətlər üzrə işlərin uğurla davam etdirildiyini, hökumətlərarası komissiyanın fəaliyyətinin təşkil olunduğunu, verilmiş tapşırıqların yerinə yetirildiyini vurğuladı. Prezident Şavkat Mirziyoyev yüksəksəviyyəli qarşılıqlı səfərlərin də davam etdirildiyini, Azərbaycan Milli Məclisi Sədrinin bu yaxınlarda Özbəkistana səfərinin, parlamentlərimiz arasında əməkdaşlığın məmnunluq doğurduğunu diqqətə çatdırdı.

Qarşıda duran əsas məsələnin əlaqələrimizin bütün sahələrdə daha da inkişaf etdirilməsi olduğunu vurğulayan Özbəkistan Prezidenti Azərbaycanın və Özbəkistanın mədəniyyət xadimlərinin qarşılıqlı təltif olunmasını müsbət hal kimi dəyərləndirdi. Prezident Şavkat Mirziyoyev dövlətimizin başçısını Özbəkistanda ən əziz dostu və qardaşı kimi salamladığını bir daha qeyd etdi.



Prezident İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının sammitində ilk dəfə iştirak üçün dəvətə görə Prezident Şavkat Mirziyoyevə təşəkkürünü bildirdi. Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatında dialoq tərəfdaşı statusuna sahib olduğunu vurğulayan dövlətimizin başçısı ölkəmizin ilk dəfə məhz Özbəkistanın sədrliyi dövründə fəxri qonaq qismində Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısına dəvət olunduğunu diqqətə çatdırdı və uğurlu sədrlik münasibətilə Prezident Şavkat Mirziyoyevi təbrik etdi.

Dövlətimizin başçısı Özbəkistanın Şanxay Əməkdaşlıq Təşkilatına sədrliyi dövründə yaxşı nəticələrin əldə olunduğunu bildirdi. Səmərqənddə aparılan yenidənqurma işlərini, şəhərin abadlaşdırılmasını, gözəlləşdirilməsini xoş təəssüratla qarşıladığını vurğulayan Azərbaycan Prezidenti qardaş Özbəkistanın Prezident Şavkat Mirziyoyevin rəhbərliyi ilə inkişafının xalqımızda böyük sevinc hissi doğurduğunu qeyd etdi. Dövlətimizin başçısı bildirdi ki, biz qardaş, dost ölkə olaraq yenidən birləşdik və əlaqələrimizdə yeni məzmun yaradırıq.

Özbəkistana dövlət səfərini xoş təəssüratlarla xatırladığını vurğulayan Prezident İlham Əliyev Prezident Şavkat Mirziyoyevi Azərbaycana səfərə dəvət etdi.

Prezident Şavkat Mirziyoyev dəvəti məmnunluqla qəbul etdi.

Azərbaycan Prezidenti İlham Əliyev kənd təsərrüfatı, pambıqçılıq, trikotaj, nəqliyyat, sənaye, ticarət və digər sahələrdə əlaqələrimizin inkişafında konkret nəticələrin olduğunu bildirdi. Bütövlükdə iqtisadi-ticari əlaqələrimizin sürətlə inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı da mədəniyyət xadimlərimizin qarşılıqlı təltif edilməsini müsbət hal kimi dəyərləndirdi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanın birinci Prezidenti İslam Kərimovun məqbərəsini ziyarət edib





*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, hündürlüyü 8 metrə qədər olan məqbərə Özbəkistanın birinci Prezidenti İslam Kərimovun məzarı üzərində ucaldılıb. Məqbərənin divarları qiymətli daşlar və zərlə bəzədilib. Girişdə mərmər lövhə üzərində özbək və ingilis dillərində "Bu müqəddəs yer Özbəkistan Respublikasının birinci Prezidenti, böyük dövlət və siyasət xadimi, özbək xalqının əziz və sevimli oğlu İslam Abduqanieviç Kərimovun əbədi məskənidir" sözləri həkk olunub. Məqbərənin layihələndirilməsi və inşası zamanı onun dizaynının UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş qədim Səmərqənddəki Xəzrət-Xızr məscidi ilə uyğunluğuna diqqət yetirilib.

Prezident İlham Əliyev Özbəkistan Respublikasının birinci Prezidenti İslam Kərimovun məzarı önünə gül dəstəsi qoydu.

Sonra "Qurani-Kərim"dən ayələr oxundu.

## Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri

# Azərbaycan və Türkiyə daim bir-birinin yanındadır



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, görüşdə Prezident Rəcəb Tayyib Ərdoğan Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribatların qarşısının alınması zamanı hərbi qulluqçularımızın şəhid olması ilə bağlı Prezident İlham Əliyevə, Azərbaycan xalqına və həlak olanların yaxınlarına başsağlığı verdi.

Dövlətimizin başçısı başsağlığına görə Prezident Rəcəb Tayyib Ərdoğana minnətdarlığını bildirdi.

Görüşdə Azərbaycanın və Türkiyənin daim bir-birinin yanında olduqları bir daha qeyd edildi. Ölkələrimizin strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı.

Dövlət başçıları energetika, nəqliyyat, logistika və digər sahələrdə əməkdaşlığa dair birgə layihələri müzakirə etdilər və gələcək təmaslarla bağlı fikir mübadiləsi apardılar.



# Çin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, görüşdə Sədr Si Cinpin Azərbaycan ilə Çin arasında diplomatik münasibətlərin qurulmasının, həmçinin Yeni Azərbaycan Partiyasının yaradılmasının otuz illiyi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Dövlət başçısı bildirdi ki, Azərbaycan ilə Çin arasında əlaqələr strateji tərəfdaşlıq xarakteri daşıyır və yüksək səviyyədə inkişaf edir. "Sizin Azərbaycan ilə Çin arasında əlaqələrin inkişafına mühüm əhəmiyyət verməyinizi çox yüksək qiymətləndiririk. Biz əlaqələrimizin strateji səviyyədə hərtərəfli inkişafını dəstəkləyirik", - deyə Si Cinpin bildirdi.

Prezident İlham Əliyev Çinin lideri Si Cinpin ilə görüşdən çox məmnun olduğunu və əvvəlki görüşlərini məmnuniyyətlə xatırladığını, xüsusilə 2019-cu ildə "Bir kəmər, bir yol" Forumunda iştirak etmək üçün Çin Xalq Respublikasına səfərini yüksək qiymətləndirdiyini vurğuladı. Dövlətimizin başçısı da Azərbaycan ilə Çin arasındakı münasibətlərin strateji tərəfdaşlıq xarakteri daşıdığını, ölkələrimizin bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyini diqqətə çatdırdı.

Yeni Azərbaycan Partiyasının yaranmasının otuz illiyi münasibətilə təbriklərə görə Sədr Si Cinpinə təşəkkürünü bildirən Prezident İlham Əliyev iki ölkənin hakim partiyaları arasında çox yaxşı əlaqələrin olduğunu qeyd etdi. Azərbaycan-Çin diplomatik əlaqələrinin otuz illiyinin uğurlu nəticələrlə qeyd olunduğunu vurğulayan dövlətimizin başçısı ölkələrimiz arasında bütün sahələrdə çox faydalı və səmərəli əməkdaşlığın qurulduğunu dedi.

Prezident İlham Əliyev COVID-19 pandemiyasına qarşı mübarizədə Çinin Azərbaycana göstərdiyi dəstəyi yüksək qiymətləndirdiyini, Çindən alınmış peyvəndlər sayəsində Azərbaycanın vaksinasiya prosesinə başlayan ilk ölkələrdən olmasını həmrəyliyin nümunəsi kimi dəyərləndirdi.



Azərbaycan Prezidenti "Orta dəhliz", "Bir kəmər, bir yol" layihələri çərçivəsində də əməkdaşlıq və tərəfdaşlıq üçün böyük perspektivlərin olduğunu vurğuladı. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan Çin ilə Avropa arasında nəqliyyat prosesində mühüm rol oynayır və ölkəmizin nəqliyyat-logistika imkanları beynəlxalq yükdaşımalarında böyük əhəmiyyətə malikdir. Azərbaycan Çindən Avropaya və əks-istiqamətdə qatarlarla və digər yükdaşımaların artırılmasını tam şəkildə dəstəkləyir.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan işğaldan azad etdiyi ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərini həyata keçirir. Çinin bir çox şirkətləri də bu işlərdə iştirak üçün müraciət ediblər. Azərbaycan Çin şirkətlərinin bu layihələrə daha fəal şəkildə cəlb olunmasını dəstəkləyir.

Çin Xalq Respublikasının Sədri Si Cinpin ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini bildirdi və Azərbaycanın da Çinin ərazi bütövlüyünə və suverenliyinə göstərdiyi dəstəyi yüksək qiymətləndirdiyini qeyd etdi. Sədr Si Cinpin bildirdi ki, dövlətlərin işlərinə qarışmamaq vacib prinsipdir.

Prezident İlham Əliyev Azərbaycanın Çinin ərazi bütövlüyünü və suverenliyini daim dəstəklədiyini, Çinin də ölkəmizin ərazi bütövlüyünə birmənalı dəstəyini həmişə yüksək qiymətləndirdiyini vurğuladı və buna görə də Si Cinpinə təşəkkürünü ifadə etdi. Azərbaycan Prezidenti xüsusilə qeyd etdi ki, dövlətlərin daxili işlərinə qarışmamaq Azərbaycan üçün də əsas prinsiplərdən biridir. Dövlətimizin başçısı Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinin aliliyinin təmin olunmasını daim dəstəklədiyini diqqətə çatdırdı, ölkəmizin 2019-cu ildən Qoşulmama Hərəkatının sədri olaraq bu istiqamətdə fəaliyyətini davam etdirdiyini vurğuladı. Prezident İlham Əliyev bildirdi ki, ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir və buna hamılıqla riayət etmək lazımdır.

Dövlətimizin başçısı humanitar sahədə əməkdaşlığın tərkib hissəsi kimi şəhərlərarası əlaqələrin, tələbə mübadiləsinin artırılmasının, həmçinin turizm sahəsində əməkdaşlığın vacibliyini qeyd etdi. Azərbaycan Prezidenti pandemiya tam başa çatdıqdan sonra ölkələrimiz arasında turist mübadiləsinin COVID-19-dan əvvəlki səviyyəsinin bərpa olunacağına əminliyini vurğuladı. Dövlətimizin başçısı Çinin Azərbaycanın dostu və strateji tərəfdaşı olduğunu bir daha ifadə etdi.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin inkişafı, ticarət dövriyyəsinin artırılması, investisiyaların təşviqi, enerji, kənd təsərrüfatı, nəqliyyat, logistika, elektron ticarət, avtomobil daşımaları və digər sahələrdə əməkdaşlıq üçün böyük perspektivlərin olduğu vurğulandı, tələbə mübadiləsinin artırılmasının, ölkələrimizin şəhərləri arasında birbaşa əlaqələrin qurulmasının vacibliyi qeyd edildi.

Sonda dövlət başçıları əlaqələrimizin dərinləşdirilməsi və daha da inkişafı üçün birgə səylərin bundan sonra da davam etdiriləcəyini bildirdilər.

# Şəhidlərimizin qanı yerdə qalmadı

## "Dəmir yumruğ"un qüdrəti

### VƏTƏNİN ŞƏHİD BALALARI

Şəhidlik ölümdən də yuxarı mərtəbəyə yüksəlməkdir!

Şəhidlik ölümsüzlüyə qovuşmaqdır!

Şəhidlik vətənsevərliyin ən ali nümunəsidir!

Şəhidlik ölümə qalib gəlməkdir!

Şəhidlik xalqın, hər bir ölkə vətəndaşının qəlbində əbədi məskən salmaqdır!

❖ ❖ ❖

Şəhid təkcə bir ailənin kədəri, itkisi deyil!

Şəhid Azərbaycan Ordusunun, Silahlı Qüvvələrimizin itkisidir!

Şəhid xalqın, Vətənin itkisidir!

Şəhid hər bir elin-obanın, hər bir ailənin itkisidir!

Şəhid hər birimizin, hər bir vətənsevər azərbaycanlının itkisidir!

Əbəs deyilməyib:

*Bayraqları bayraq edən üstündəki qandır,*
*Torpaq uğrunda ölən varsa, Vətəndir!*

**Bəli, torpağı Vətənə çevirən şəhidlərdir!**

❖ ❖ ❖



Azərbaycan gənci uzun müddət dünyadan haqq, ədalət gözlədi...

Azərbaycan gənci torpağın işğalı ilə barışmadı...

Azərbaycan gənci səbir kasası daşanadək dözdü...

Sonda haqq, ədalət yerinə ikili standartlarla rastlaşdı!

**ATƏT-in mənasız, boş və əhəmiyyətsiz "turist səfərləri"ni izlədi.**

**Ermənilərin yekəbaşlığına, onların müdafiəçilərinin və havadarlarının riyakar, ikibaşlı oyunlarına nifrətlə tamaşa etdi.**

Dözə-dözə torpaqların işğaldan azad edilməsinə hazırlaşdı.

Nifrətini hərb elminin öyrənilməsinə, yeni silahlardan məharətlə istifadə bacarığının təkmilləşdirilməsinə yönəltdi.

*Özünü Vətən torpağının murdar ləpirlilərdən təmizlənəcəyi günə - müqəddəs savaşa hazırladı!*

*Özünü son damla qanınadək Vətən uğrunda ölüm-dirim müharibəsinə hazırladı!*

*Özünü müqəddəs şəhidlik məqamına hazırladı!*

Bir gün meydana çıxaraq hayqırdı!

Müzəffər Ali Baş Komandanın "İrəli!" əmrini gözlədiyini bəyan etdi!

"Şəhidlər ölməz, Vətən bölünməz!" - deyə nərə çəkərək Vətən torpağının bütövlüyü uğrunda ölümə də hazır olduğunu nümayiş etdirdi!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün yetişdirdiyi gənclərin önünə keçdi!**

**Özünün qurduğu və silahlandırdığı orduya hücum əmri verdi!**

**Hər bir Azərbaycan əsgəri və zabiti oda, alova çevrilərək düşməni yandırıb-yaxdı!**

**Hər bir silahdan açılan atəş düşməni cəhənnəmə vasil edərək qələbəni yaxınlaşdırdı!**

**Hər bir hücum yeni bir yaşayış məntəqəsinin azad edilməsi ilə nəticələndi!**

❖ ❖ ❖

Müzəffər Ali Baş Komandanın döyüşə apardığı Azərbaycan Ordusu 44 gün ərzində möcüzələr yaratdı:

- *Otuz illik işğala, həsrətə son qoydu!*
- *Otuz ildə çəkdiyi əzabların əvəzini çıxdı!*
- *Otuz ildə başına gətirilənlərin qisasını aldı!*

**Ermənistanın "məğlubedilməz ordusu"nu da, "qalib erməni xalqı"nı da, Ermənistanın havadarlarını və müdafiəçilərini də, Ermənistana silah və dil verənləri də rəzil günə saldı!**

- Ermənistan generallarını tülkü kimi Qarabağdan qaçmağa məcbur etdi!
- Erməni əsgər və zabitlərinin qorxaq və fərari olduqlarını sübuta yetirdi!
- Ermənistana verilən pulsuz texnikaları, silahları dəmir-dümür yığnağına çevirərək Bakıdakı Hərbi Qənimətlər Parkının eksponatı etdi!

*Müzəffər Ali Baş Komandanımız təkcə hərb meydanında deyil, diplomatiya və informasiya müharibəsində də şəksiz qələbəmizi təmin etdi!*

*Müzəffər Ali Baş Komandan "dəmir yumruq"la düşmənin başını əzərək ona kapitulyasiya aktını imzalatdırdı!*

*Müzəffər Ali Baş Komandanımız hər bir şəhidimizin, hər bir qazimizin qisasını artıqlaması ilə aldırdı!*

❖ ❖ ❖

Düşmən həyasız, müdafiəçiləri isə abırsız və ədalətsizdirlər!

Gündə bir hava çalıb, Paşinyanı ortaya salırlar!

Gündə bir söz fırladıb, ermənini yenidən qızışdırırlar!

İtin dişi, donuzun dərisi - dart ki, dartasan!

Dəstək erməni diasporundan, maliyyə xaricdəki ermənilərdən, can isə ağılsız İrəvan və "Qarabağ erməniləri"ndəndir!

Diasporun pulu gedir, yoxsul ermənininin isə canı.

Bu gün Ermənistandan qaçan qaçıb, xaricdə başını salamat saxlayır!

Yerdə qalanlar isə yoxsulluq içində boğulur, səksəkədə yaşayır, canını və malını itirir!

Çünki onları dinc qoymurlar, olmayan beyinlərinin yerinə "revanşizm" zəhəri doldururlar!

"Dəmir yumruq" isə daim hazır vəziyyətdədir!

**"Qisas" əməliyyatı da, görünür, onlara dərs olmadı!**

**Yenə qaşındılar, yenə gicişdilər!**

**Yenə "dəmir yumruq" işə düşdü!**

**Yenə qırılanı qırıldı, qaçanı qaçdı, hərbi texnikası və silahları əsgərqarışıq məhv edildi!**

❖ ❖ ❖

*Təəssüf ki, müharibə itkisiz olmur!*
*Təəssüf ki, qalib tərəf də təlafat verir!*
*Bu dəfə də şəhidlərimiz oldu!*

**Vətənin fəxri şəhidlər!**

**Torpağı Vətənə çevirən şəhidlər!**

**Xalqın istəklisi, əzizi, sevimli övladı sayılan şəhidlər!**

**Bizim hər birimizə qürur, fəxarət, başucalığı gətirən şəhidlər!**

*Ürəyimiz yansa da, gözümüzdən qanlı yaş axsa da, şəhidlərimizin qəhrəmanlığı, igidlik və şücaəti qəlbimizə bir təsəlli verir!*

**Azərbaycan şəhidi ölməzdən əvvəl öz qanını alıb, sonra əcələ təslim olur!**

**Azərbaycan şəhidi açıq alınla, Vətən sevgisi ilə əbədiyyətə qovuşur!**

**Bilir ki, onun əziz xatirəsi heç zaman unudulmayacaqdır!**

**Bilir ki, ona həyat bəxş edən anası daim məhəbbətlə, qayğı ilə əhatə olunacaqdır!**

**Bilir ki, balaları heç nədən korluq çəkməyəcək, daim ataları ilə fəxr edəcəklər!**

**Bilir ki, əsrlər və nəsillər dəyişsə də, heç zaman şəhidlər unudulmayacaq, daim hörmət və minnətdarlıqla anılacaqlar!**

Başını dik tut, şəhid Anası!

Sən Vətənə qəhrəman övlad bəxş etmisən!

Başını dik tut, şəhid xanımı!

Sən qəhrəman Azərbaycan kişisini sevib-seçmisən!

Başını dik tut, şəhid balası!

Sənin atan əsl qəhrəman, qorxmaz döyüşçü, igid əsgər, əsl vətənpərvər olub!

Başın sağ olsun, Azərbaycan!

Şəhid balalarınla fəxr elə, onları isti qoynunda əbədi yaşat, Vətən!

**Bəxtiyar SADIQOV**

# Ağdamda qazilərlə görüş



**Ağdam rayonunun Qaradağlı kəndində qazilərlə növbəti görüş keçirilib. Görüşdə qazilərin qarşılaşdıqları problemlər və onların həlli mexanizmləri geniş müzakirə edilib.**





Çıxış edən Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov bu kimi görüşlərin Prezident İlham Əliyevin Vətən müharibəsi iştirakçılarına olan diqqət və qayğısından irəli gəldiyini vurğulayıb. RİH başçısı qeyd edib ki, qazilərin üzləşdiyi hər hansı çətinliyin aradan qaldırılması bu gün dövlət orqanlarının qarşısında duran ən vacib məsələlərdəndir. Görüşdə həmçinin Vətən müharibəsi qazisi, rayonun Şükürağalı kənd sakini Usubov Rail Qüdrət oğlunun doğum günü qeyd edilib.

Tədbirin sonunda qazilər onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlıqlarını bildirmişlər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Şəhidin xatirəsinə həsr olunmuş kitabın təqdimatı keçirilib



**Ağstafanın Heydər Əliyev Mərkəzində rayonun Qırılı kəndindən olan Vətən müharibəsi şəhidi Emin Əmrahovun xatirəsinə həsr olunmuş "Eminin şəhidlik zirvəsi" adlı kitabın təqdimatı keçirilmişdir.**

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Seymur Orucov, kitabın müəllifi Mətanət İmamquliyeva, Emin Əmrahovun və digər ağstafalı Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə iştirakçıları, eləcə də rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycanın Dövlət himni səsləndirilmişdir. Sonra Azərbaycan Silahlı Qüvvələrinin çavuşu, 44 günlük Vətən müharibəsində Xocavənd rayonunun azad edilməsi uğrunda qəhrəmancasına şəhidlik zirvəsinə ucalmış Emin Əmrahovun keçdiyi mənalı ömür və şərəfli döyüş yolundan söhbət açılmışdır. Çıxış edənlər Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun Vətən müharibəsində əldə etdiyi tarixi qələbədən, ölkəmizdə şəhid ailələrinə, qazilərə, müharibə iştirakçılarına göstərilən yüksək dövlət qayğısından danışmışlar.

Sonda iştirakçılara "Eminin şəhidlik zirvəsi" kitabı hədiyyə edilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Həmrəyliyin təntənəsi

## Azərbaycan xalqı Vətənimizin bütövlüyünü təhdid edən düşmənə qarşı mübarizədə milli birliyin növbəti nümunəsini ortaya qoydu

**Azərbaycan xalqı xoşbəxt xalqdır ki, xoş günündə də, dar günündə də birgədir, həmrəydir!**

Ulu xalqımız məhz elə bu möhtəşəm həmrəyliyi sayəsində 2020-ci il sentyabrın 27-dən noyabrın 10-na qədər olan 44 günlük zaman kəsiyində Vətən sınağından da üzüağ, başıuca çıxdı.

Odlar yurdunda yaşayan bütün xalqların nümayəndələri haqq uğrunda çıxdığımız "zəfər yürüşü"ndə "dəmir yumruğ"a çevrilərək düşmənin başını əzdi.

### "Torpağına canım qurban, Azərbaycan!"

"Torpağına canım qurban, Azərbaycan!" deyərək irəli şığıyan Azərbaycan oğulları Qarabağ dedi, Vətən hayqırdı.

Ana yurdun harayına yer-yerdən hay verən qəhrəman övladlarımız soyuq, qarboran demədən, güllədən, mərmidən, bombadan çəkinməyərək düzənliklər keçib, dağlar aşıb, sıldırımlı qayalara dırmaşıb mənfur düşmənin üzərinə yeridi, döyüşə atıldı.

Əzmkarlıq, rəşadət nümayiş etdirərək Vətənimizin ən hündür zirvələrində Azərbaycanın müqəddəs bayrağını dalğalandırdılar.

Canını bu torpağa qurban deyən qorxmaz oğullarımız canları, qanları bahasına Vətən uğrunda qazi, şəhid oldular.

Salnamələrimizə qızıl hərflərlə həkk olunan 44 günlük müharibə həm də milli kimliyimizin oyanışı kimi hafizələrdə silinməz izlər buraxdı. Xalqımız Vətən savaşında tarixin heç bir dönəmində olmadığı kimi bir amal ətrafında birləşdi, həmrəy oldu.

Haqq uğrunda çıxdığımız bu savaşda qazanılan zəfərdə Azərbaycan xalqının hər bir övladının əməyi oldu. Çoxmillətli xalqımın hər bir üzvü bu qələbədə bir zərrə qədər payı olsun deyə gecə-gündüz əzmlə çalışdı. Türkü də, ləzgisi də, talışı da, yəhudisi də, rusu da, kürdü də ana yurdun müdafiəsinə qalxdı, bir yumruq kimi dövlətin ətrafında sıx birləşdi, cani-dildən çalışdı ki, qələbəyə töhfə versin. Yaşadığı yerdən, bölgədən, yaşından, varından asılı olmayaraq, hamı bu yolda müsəlləh əsgərə çevrildi, ön cəbhədə vuruşan mərd oğullarımıza dayaq durmaq üçün arxa cəbhədə bir ürək oldular. Xaricdə yaşayan həmvətənlərimiz dünyada ayaq açıb yerimək istəyən erməni yalanlarının qarşısını almaq üçün gecə-gündüz informasiya savaşı apardılar.

### Gücümüz birliyimizdədir

Azərbaycan xalqı birliyin gücündən doğan qüdrətlə düşməni qarşısında diz çökdürdü, onu yalvarmağa, kapitulyasiyaya qol çəkməyə vadar etdi.

2020-ci ilin 23 dekabrında Müzəffər Ali Baş Komandan İlham Əliyev işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olarkən xalqımızın bu həmrəyliyini xüsusi vurğulamışdı: "Azərbaycan tarixdə heç vaxt belə parlaq zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində "dəmir yumruq"la düşmənin başını əzib, öz doğma torpaqlarımızı azad etmişik".

Vətən müharibəsinin o 44 günündə Azərbaycan xalqının qulağı daim qələbə sorağında oldu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin kəndlərimizin, şəhərlərimizin, yüksəkliklərimizin azadlığı ilə bağlı verdiyi xoş müjdələrə sevinc gözyaşları tökdü, qələbə coşqusu yaşadı. Əllərində üçrəngli Azərbaycan bayrağı, ürəyində Vətən sevdası olan insanlar Şəhidlər xiyabanlarına axışdı, qisasın qiyamətə qalmadığının qürurunu yaşadı.

O 44 gündə ocağına şəhid atəşi düşən ana-atalar, həyat yoldaşları kədər yaşlarını ürəklərinə axıtdılar, "Təki, Vətən sağ olsun" dedilər.

Bu mətanətləri, Vətənə, torpağa olan tükənməz sevgiləri ilə bir daha qəlblərimizdə uca taxt qurdular...



### "Qisas" qiyamətə qalmır

Vətən müharibəsinin zəfərlə başa çatmasının üzərindən ötən müddət ərzində parlaq qələbəmizi həzm edə bilməyən, acı məğlubiyyəti ilə barışmağa çətinlik çəkən işğalçı, azğın düşmən mütəmadi olaraq ölkəmizə qarşı təxribatlara əl atır, alçaq, məkrli planlar düzənləyir. Amma mənfurlar hər belə xain cəhdlərində qəhrəman Azərbaycan əsgəri tərəfindən vurulan ağır zərbə ilə sarsılırlar.

Bu il avqustun 3-də də düşmən növbəti təxribatının layiqli cavabını alaraq, yerinə otuzduruldu. Ermənistanın təxribatına cavab olaraq Azərbaycan "Qisas" əməliyyatını keçirdi və Qırxqız yüksəkliyini, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəklikləri nəzarətə götürdü.

Eləcə də sentyabrın 12-si gecədən başlayaraq sərhədlərimizdə genişmiqyaslı təxribatlara əl atan düşmənin külü göyə sovruldu. Həmin vaxt Azərbaycan Silahlı Qüvvələrinə uğurlu əməliyyat üçün cəmi 7 saat vaxt bəs etdi. Qəhrəman oğullarımız bu qısa zamanda həm düşmənin layiqli cavabını verdi, həm də şəhidlərimizin qanını yerdə qoymayaraq onların qisasını aldı.

### Qalibiyyət sevincini də, şəhidlərimizin dərin hüznünü də birgə yaşadıq

Ön cəbhədə düşmənin dərsini verən igid oğullarımızla bir daha öyündük, Vətən uğrunda canlarını qurban verən şəhidlərimizlə qürur duyduq, onların uca ruhları qarşısında baş əydik.

Azərbaycan xalqı hər zaman olduğu kimi, indi də milli maraqlar uğrunda həmrəylik nümayiş etdirdi, rəşadətli ordumuzun arxasında dağ kimi dayanan dövlətinin ətrafında sıx birləşdi. Çoxmillətli xalqımız yenə də qalibiyyət sevincini birgə yaşadı, cəbhədəki itkilərimizin, canını ana torpağa qurban verən şəhid övladlarımızın dərin hüznünə qərq oldu.

Amma bir daha sübut etdi ki, bu xalq birliyi, həmrəyliyi sayəsində hər zaman güclü olacaq və ölkəmizin ərazisinə və suverenliyinə təhlükə törədəcək bütün mənfur qüvvələrin qarşısına çıxaraq, düşmənlərini darmadağın və məhvə məhkum edəcək.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***



# Hərb və diplomatiya meydanının qalibi

## Azərbaycanın nüfuzu və gücü Ermənistanı yenidən hərbi-siyasi məğlubiyyətə uğratdı

**Avqustun 31-də keçirilmiş növbəti Brüssel görüşünün əsas məqamlarından biri Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində işlərin sürətləndirilməsi ilə bağlı razılığa gəlinməsi idi. Bununla bağlı hər iki tərəfin xarici işlər nazirlərinə müvafiq tapşırıqlar verilmişdi. Sonrakı günlərdə Azərbaycan dövləti humanizm prinsiplərini rəhbər tutaraq, beş erməni hərbçisini azad etməklə xoşməramlı niyyətini ortaya qoymuşdu.**

### Azərbaycan üstünlüyünü daha da gücləndirdi

Sentyabrın 12-si gecədən başlayaraq dövlət sərhədi istiqamətində Ermənistan ordusunun təxribatları sülh prosesinə yenidən zərbə vurdu. Görünən odur ki, indiki Ermənistan hakimiyyəti əvvəlki iqtidarların vaxtilə həyata keçirdikləri taktikanı təkrarlayır və danışıqların hansısa müsbət irəliləyiş məqamında bütün prosesi kökündən laxladır. Vətən müharibəsinə qədər Ermənistan rəhbərliyinin bir nömrəli məqsədi status-kvonu qoruyub saxlamaq, torpaqlarımızın işğalını hər vəchlə uzatmaq idi. Amma Azərbaycanın qələbəsi ilə başa çatan İkinci Qarabağ müharibəsi yeni reallıqlar yaratdı. Bu reallıqları təmin edən Azərbaycanın Ermənistanın üzərinə qoyduğu öhdəliklər 10 noyabr Bəyanatında təsbit olunub. Eləcə də Moskvada, Soçidə və Brüsseldə keçirilən görüşlərdə vacib razılaşmalar əldə edildi.

Buna baxmayaraq Ermənistan hakimiyyəti həmişə üçtərəfli görüşlərdən sonra ziddiyyətli və danışıqların məzmununa uyğun olmayan siyasi davranış ortaya qoydu. Əslində, bu hərəkəti ilə İrəvan sülh danışıqlarını, kommunikasiyaların açılmasını, ümumilikdə regionda təhlükəsizliyin təmin olunması istiqamətində irəli sürülən bütün təşəbbüsləri və atılan addımları sabotaj edir və 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müddəalarının icrasından boyun qaçırdı. Ermənistanın baş naziri N.Paşinyan bu yaxınlarda Rusiyanın Vladivostok şəhərində keçirilən Şərq İqtisadi Forumunda çıxışı zamanı faktiki olaraq yeni hərbi qarşıdurma iddiası səsləndirdi və bu açıqlama sentyabrın 12-də başlanan gərginliyin siyasi anonsu oldu.

Bu baxımdan bir neçə gün əvvəl dövlət sərhədində baş verən silahlı toqquşma Ermənistanın siyasi rəhbərliyinin mövcud status-kvoya zərbə vurmaq, öhdəlikləri yerinə yetirməmək üçün hərbi avantürası idi. Amma bu avantüra Ermənistanın özünə baha başa gəldi. Çünki döyüşlərin sonu Azərbaycanın növbəti hərbi zəfəri kimi tarixə düşdü. Nəticə etibarilə Azərbaycan Ermənistan üzərində siyasi-hərbi üstünlüyünü daha da gücləndirdi.

### Erməni məkrinin göstəricisi

Ermənistan rəhbərliyi hər dəfə belə təxribatlarının iflasa uğramasından sonra ora-bura zəng edir, xarici siyasi mərkəzlərdən dəstək diləyir. Bu dəfə də eyni hal təkrarlandı. Paşinyan bütün gecəni telefon aparatlarının arxasında keçirdi, zəng etmədiyi dövlət başçısı qalmadı, Azərbaycandan şikayət etdi, ordan-burdan kömək istədi. Amma təbii ki, bütün bunlar Azərbaycanın Ermənistanı cəzalandırma tədbirlərinin qarşısını ala bilməzdi. Necə ki, 44 günlük müharibədə Azərbaycan Ordusu işğalçılara döyüş meydanında divan tutmuşdu. Bu dəfə də Ermənistan üz tutduğu dövlətlərdən və təşkilatlardan heç bir dəstək ala bilmədi.

Onu da qeyd edək ki, həmin gecə Ermənistan rəhbərliyinin bu şəkildə hərəkətə keçməsi planlaşdırılmış bir fəaliyyətdən xəbər verirdi. Gecə ilə təhlükəsizlik şurasının iclasının keçirilməsi, müxtəlif dövlətlərin başçılarına edilən telefon zəngləri, Ermənistanın beynəlxalq təşkilatlara müraciəti, bu ölkənin ombudsmanının, ayrı-ayrı ölkələrdəki erməni təşkilatlarının dərhal bəyanatla çıxış etmələri bunu təsdiqləyirdi. Bu həm də erməni məkrinin göstəricisi idi. Onlar bir daha bədnam xislətlərini ortaya qoyaraq saxta məlumatlar yaymaqdan belə çəkinmədilər.

### Düşmənin niyyəti gözündə qaldı

Sentyabrın 13-dən sonra baş verənlər göstərdi ki, Ermənistanın bu hərbi təxribatı bumeranq effekti verərək öz başında çatladı. Əvvəla, qeyd etdiyimiz kimi, döyüşlərdən sonra Azərbaycan daha güclü siyasi və hərbi mövqe qazandı. Baş verən son toqquşmalarda Ermənistan ordusu canlı qüvvə və hərbi texnika baxımından ciddi itkilərə məruz qaldı. Düşmənin Azərbaycanla sərhədinin Laçın, Kəlbəcər və Zəngilan istiqamətində qurduğu, ölkəmizin təhlükəsizliyinə təhdid yaradan bütün hərbi təyinatlı obyektləri darmadağın edildi.

Bununla yanaşı, Ermənistan rəhbərliyinin və erməni təşkilatlarının əvvəlcədən planlaşdırdıqları hay-həşir, telefon zəngləri, bəyanatlar və müraciətlər heç bir effekt vermədi. Ermənistan Azərbaycana qarşı hansısa beynəlxalq qınağın baş verəcəyini, təzyiqlərin olacağını gözləsə də, niyyəti puç oldu. Ayrı-ayrı dövlətlərin və təşkilatların bununla bağlı açıqlamalarında Ermənistanın gözləntiləri ifadə olunmadı.

N.Paşinyanın sentyabrın 12-dən 13-nə keçən gecə keçirdiyi təhlükəsizlik şurasının iclasında Ermənistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) müraciət etməsi qərara alınmışdı. Lakin əvvəllər olduğu kimi, bu dəfə də Ermənistan KTMT-ni öz təxribatçı oyunlarına alət edə bilmədi. KTMT birləşmiş qərargahının rəisi Anatoli Sidorov bildirdi ki, təşkilat Ermənistan-Azərbaycan sərhədinə sülhməramlı qüvvələr göndərməyi planlaşdırmır. Təşkilatın Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunacağına ümid bəslədiyini deyən A.Sidorovun sözlərinə görə, münaqişənin həlli üçün hərbi güc tətbiq edilməsindən, xüsusilə də KTMT qüvvələrindən istifadə olunmasından söhbət getmir.

Azərbaycan Ordusunun gücü bir daha döyüş meydanında öz təsdiqini tapdı. Bu hadisələr zamanı Ermənistanın siyasi avantüralarına zərbə vuran əsas amillər isə Prezident İlham Əliyevin şəxsi və siyasi nüfuzu və Azərbaycanın beynəlxalq münasibətlərdəki güclü mövqeyidir. Ona görə Azərbaycan həm hərb, həm də diplomatiya meydanının qalibidir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# "Dəmir yumruğ"un növbəti zərbəsi

**Sülh prosesindən yayınmaq üçün yenə də çirkin oyunlar oynayan Ermənistanın növbəti genişmiqyaslı təxribatının qarşısı Müzəffər Azərbaycan Ordusu tərəfindən qətiyyətli cavab əməliyyatı ilə alındı və düşmənə bir daha sarsıdıcı zərbə vuruldu.**
**Düzdür, hər iki tərəf yenə itki verdi, lakin dəfələrlə çoxunu və ən ağır zərbəni Ermənistan aldı. İki il öncəki İkinci Qarabağ müharibəsində olduğu kimi...**

### Sülh prosesinə mane olan erməni məkri

İki il öncə də hadisələr belə başlamışdı. Ermənistanın sülh prosesinə ciddi zərbə vurması, qeyri-konstruktiv mövqeyi ilə danışıqlardan imtina edib təxribata əl atması onunla anlaşıqlı dildə deyil, zor gücü ilə danışılmasını şərtləndirdi.

"Dəmir yumruq" işə düşdü və cəmi 44 günə düşməni hərbi kapitulyasiyaya məcbur etdi. Qarabağ münaqişəsi həll edildi və "status" məsələsi arxivə göndərildi. Sülh prosesi başladı, məğlub Ermənistan İlham Əliyevin irəli sürdüyü 5 prinsip əsasında barış müqaviləsini imzalamağa hazır olduğunu bəyan etdi. Moskva və Brüssel görüşləri bu prosesə bir qədər təkan verdi. Amma erməni məkri, erməni iddiası yenə prosesə kölgə salmaqda davam etdi.

İkinci Qarabağ müharibəsinin başa çatmasının ikinci ildönümünə sayılı günlər qalan dövrdə Ermənistanın sərgilədiyi mövqe göstərdi ki, bu ölkə yenə də köhnə ampluasındadır. İlham Əliyev isə demək olar hər çıxışında Ermənistan rəhbərliyinə, revanşist qüvvələrə xəbərdarlıqlar ünvanlayırdı.

Qalib Sərkərdə deyirdi ki, müharibə Ermənistanın yadından çıxmamalıdır. Unutmamalıdırlar ki, "dəmir yumruq" yerindədir. Əgər təxribat xarakterli addımlar atılacaqsa, Ermənistan daha da peşman olacaq. Bu təxribatlara görə Azərbaycan sülh müqaviləsini imzalamaqdan da imtina edəcək.

Bu o demək idi ki, "dəmir yumruğ"un növbəti zərbəsi daha sərt və amansız olacaq. Məğlub Ermənistan bundan sonra da nə qədər pulsuz silah-sursatla təmin edilsə də, arsenalını güclü texnika ilə zənginləşdirsə də, erməni əsgəri yüksək döyüş ruhlu Azərbaycan əsgərinin qarşısında duruş gətirə bilməyəcək.

### Ermənistan Azərbaycana heç bir real təhlükə yarada bilməyəcək

Son proseslər göstərdi ki, Ermənistan konkret olaraq ikili oyun oynayır. Bir tərəfdən baş nazir Nikol Paşinyan Brüssel görüşündə sülh müqaviləsinin mətninin hazırlanmasına razılığını verir, digər tərəfdən Ermənistan ordusu təxribat törətməkdən əl çəkmir.

Ermənistanın baş naziri Nikol Paşinyan bu yaxınlarda Vladivostokda keçirilmiş forumda çıxışı zamanı faktiki olaraq yeni hərbi qarşıdurma iddiası səsləndirdi və bu əslində elə sentyabrın 12-də başlanan gərginliyin siyasi anonsu idi.

Sentyabrın 12-da baş verən genişmiqyaslı təxribat isə Azərbaycan Ordusunun qətiyyətli cavab əməliyyatı həyata keçirməsini şərtləndirdi. Ümumiyyətlə, son bir ay ərzində Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Laçın, Gədəbəy, Daşkəsən və Kəlbəcər rayonları istiqamətində törətdikləri təxribatlar, Azərbaycan Ordusunun həmin rayonların ərazisindəki mövqelərinin müxtəlif çaplı silahlardan atəşə tutulması intensiv və sistematik xarakter daşıyırdı. Eyni zamanda Ermənistan tərəfindən Azərbaycan sərhədləri boyunca hücum təyinatlı silahların, ağır artilleriya vasitələrinin və şəxsi heyətin cəmləşdirilməsi müşahidə olunmaqda idi. Bütün bu faktlar bir daha ona göstərirdi ki, Ermənistan genişmiqyaslı hərbi təxribata hazırlaşır. Ermənistan bu kimi əməlləri ilə həmçinin Azərbaycanın işğaldan azad edilmiş sərhədyanı rayonlarında həyata keçirdiyi irimiqyaslı mülki infrastruktur layihələrinin icrasını ləngitmək və Azərbaycan sərhədləri yaxınlığında gərginliyi saxlamaq məqsədini güdürdü.

Bütün bunlar göstərir ki, Ermənistan uzun müddətdir revanşa hazırlaşır və bunun üçün həm siyasi, həm hərbi, həm də informasiya zəmini yaradırdı. Laçının təhvil verilməsi Ermənistan hakimiyyəti üçün növbəti ağır zərbə olmuşdu. Odur ki, daxili təzyiqləri neytrallaşdırmaq, ictimai rəyi dəyişdirmək üçün növbəti hərbi-siyasi avantüraya əl atmaq lazım idi. Sonuncu təxribat bunu təsdiqlədi. Lakin düşmən yenə də məkrli niyyətinə çata bilməyib ağır zərbə aldı.

Azərbaycan Ordusu düşmən təxribatlarına qətiyyətli cavab əməliyyatlarında 71 şəhid versə də, Ermənistan yüzlərlə hərbçisini itirdi. Müzəffər Ordu şəhidlərin qanını yerdə qoymadı. Özü təxribata başlayan Ermənistan sonunda yenə də beynəlxalq təşkilatlara, havadarlarına yalvararaq atəşkəsin təmin olunmasına vasitəçi olmalarını xahiş etdi.

Ümumiyyətlə, sentyabrın 12-13-də baş verənlər 2020-ci il iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın növbəti təxribatı nəticəsində baş verən qarşıdurma ilə analogiya təşkil edir. Azərbaycan növbəti dəfə Ermənistanın hərbi-siyasi təxribatına məruz qalaraq cavab vermək və öz təhlükəsizliyinin təmin olunması üçün adekvat addımlar atmaq məcburiyyətində qaldı.

Ermənistanın növbəti avantürası bir daha göstərdi ki, regionda formalaşmış yeni reallığın dəyişdirilməsi isitqamətində atılan istənilən addım onu edən ölkənin özü üçün yeni faciələrə səbəb olacaq. Ermənistanın Azərbaycanla sərhədinin Laçın, Kəlbəcər və Zəngilan istiqamətində qurduğu, Azərbaycanın təhlükəsizliyinə təhdid yaradan bütün hərbi təyinatlı obyektlər darmadağın edildi. İndi həmin istiqamətdə bütün yüksəkliklər ordumuzun əlindədir. Azərbaycan həmin bölgədə bütün nəqliyyat-kommunikasiya sistemini, çox mühüm yüksəklikləri nəzarətə götürüb. Artıq nə indi, nə də gələcəkdə Ermənistan Azərbaycana heç bir real təhlükə yarada bilməyəcək.

2020-ci il Tovuz hadisələrindən hazırkı gərginliyi fərqləndirən önəmli cəhət odur ki, həmin dövrdə Azərbaycan əraziləri işğal altında idi. Bu gün isə Azərbaycan Ordusu dövlət sərhədinin Kəlbəcər, Laçın, Zəngilan rayonları istiqamətində Ermənistanın təxribatlarına layiqli cavab verir.

Ermənistanın son təxribatı nəticəsində şəhid olmuş əsgər və zabitlərimiz öz canlarını doğma torpağımızın müdafiəsi, düşmənin yeni təcavüz planlarına imkan verməmək üçün qurban verdilər. Onlar qəhrəmanlıqları, igidlikləri və şücaətləri ilə bir daha düşmənə və bütün dünyaya nümayiş etdirdilər ki, Azərbaycan qadınları dünyaya Vətənini, millətini sevən yüzlərlə, minlərlə Mübarizlər gətirir. O Mübarizlər ki, qanı ilə, canı ilə Vətənə bağlı olub, ona yönələn istənilən təxribata qarşı sinəsini sipər edib, düşmənə gözdağı verməyi bacarır. Bu yolda yeri gələndə şəhidlik zirvəsinə ucalaraq Vətənin ölümsüz qəhrəmanlarına çevrilirlər. Bu gün isə Vətən deyəndə Mübarizlər, Mübarizlər deyəndə Vətən başa düşülür və bu, illər, əsrlər keçsə də, belə olacaq. Çünki bu gün dünyaya gələn zəfər övladları igidlərimizin qanları ilə yazdıqları qərhəmanlıq salnamələrini oxuyaraq yüksək vətənpərvərlik ruhunda böyüyəcəklər.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

AZƏRBAYCAN www.azerbaijan-news.az

# Milli Məclisin komitə iclasları keçirilib

**Sentyabrın 15-də Milli Məclisin Elm və təhsil komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasın əvvəlində son günlərdə Ermənistan tərəfinin sərhəddə törətdiyi təxribatın qarşısı alınarkən şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Komitə sədri Bəxtiyar Əliyev bu hadisələrlə bağlı fikirlərini bölüşüb. Bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu təcavüzkara layiqli cavab verib.

İclasda komitə sədri qeyd edib ki, 15 Sentyabr həmçinin Bakının erməni-bolşevik işğalından azad olunması günüdür. Bu gün biz eyni zamanda Azərbaycan-Türkiyə qardaşlığının sarsılmaz birliyini də qürurla qeyd edirik.

Bəxtiyar Əliyev həm də növbəti dərs ilinin başlandığını deyərək, Ermənistanın işğalından azad olunan Zəngilan rayonunun Ağalı kənd orta məktəbində ilk dəfə dərslərin keçirildiyini söyləyib.

Sonra iclasın gündəliyinə daxil olan üç məsələyə baxılıb. Komitə sədri əvvəlcə 2022-ci ilin payız sessiyası üçün iş planı barədə məlumat verib. Qeyd edilib ki, növbəti sessiya ərzində "Ali təhsil haqqında" qanun layihəsinin hazırlanması, komitəyə daxil olan sənədlərin, müraciətlərin müzakirəsi və ekspertizası, digər komitələrlə birgə Milli Məclisə çıxarılacaq sənədlərin müzakirəsi nəzərdə tutulub.

Sonra Bəxtiyar Əliyev Milli Məclisin 2022-ci il yaz və növbədənkənar sessiyaları ərzində Elm və təhsil komitəsində görülmüş işlərin hesabatını təqdim edib. Qeyd olunub ki, hesabat dövründə komitənin 5 iclası keçirilib, 11 məsələyə baxılıb. Bu müddətdə "Peşə təhsili haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Ümumi təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrinin və digər sənədlərin müzakirəsi keçirilib. Bütün qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub və qəbul edilib.

Diqqətə çatdırılıb ki, yaz və növbədənkənar sessiyalar ərzində komitənin sədri və üzvləri bir sıra ölkədaxili və beynəlxalq səviyyəli tədbirlərdə, o cümlədən MDB PA-nın Elm və təhsil üzrə daimi komissiyasının iclasında, ADA Universitetində Azərbaycan Milli Məclisi, Türkiyə Böyük Millət Məclisi və Beynəlxalq Balkan Universitetinin birgə təşkilatçılığı ilə 7-ci Beynəlxalq Sosial Elmlər Konqresində, Sosial Tədqiqatlar Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Tarixi Azərbaycan torpaqlarında maddi-mədəni irsimiz: İrəvandan-Zəngəzuradək" kitabının, Strateji Kommunikasiyalar Mərkəzinin təşkilatçılığı ilə keçirilən "İrəvan şəhərində Azərbaycan milli-mədəni, tarixi irsinin sonuncu qalığı Təpəbaşı məhəlləsinin taleyi: Ermənistanda Azərbaycan xalqının irsinin dağıdılması və tarixi izlərinin silinməsi" üzrə araşdırmanın təqdimat mərasimlərində iştirak ediblər.

Ötən müddət ərzində komitə üzvləri eyni zamanda Vətən müharibəsi şəhidlərinin anım günlərinə həsr olunmuş tədbirlərdə mütəmadi olaraq iştirak edib, onların ailə üzvləri ilə görüşüblər.

Bildirilib ki, hesabat dövründə seçicilərin qəbulu həyata keçirilib. Deputatlara vətəndaşlardan ünvanlanmış müraciətlərə baxılıb və həll olunması üçün aidiyyəti üzrə göndərilib.

İclasda çıxış edən komitənin sədr müavini Musa Qasımlı, üzvləri İsa Həbibbəyli, Etibar Əliyev, Ceyhun Məmmədov, Tamam Cəfərova, Kamilə Əliyeva, Müşfiq Məmmədli, Rafael Hüseynov, Pərvin Kərimzadə, Fatma Yıldırım komitənin cari ilin payız sessiyası üçün iş planı, yaz və növbədənkənar sessiyalarda görülən işlər, habelə təhsil sahəsində bir sıra aktual məsələlər barədə öz fikirlərini söyləyiblər.

Müzakirələrin sonunda Elm və təhsil komitəsinin 2022-ci il üçün iş planı təsdiqlənib, yaz və növbədənkənar sessiyaları ərzində görülmüş işlər qənaətbəxş hesab olunub.

Daha sonra iclasda "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) baxılıb.

Bildirilib ki, sənəd Azərbaycan Prezidentinin 2020-ci il 27 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 4.2-ci bəndinə uyğun olaraq hazırlanıb.

Qanunun Sertifikat Xidmətləri Mərkəzinin qeydiyyata alınması və akkreditə edilməsi ilə bağlı 9-cu maddəsinə təklif edilən əlavəyə görə, mərkəzin qeydiyyata alınması üçün zəruri olan sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə müvafiq dövlət orqanından əldə edilməsi mümkün olduqda həmin sənədlər və ya məlumatlar iddiaçı şəxsdən tələb edilmir. Belə sənədlərin və ya məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə əldə edilməsi mümkün olmadığı hallarda onların təqdim edilməsi iddiaçı şəxsin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından tələb olunur və ya iddiaçı şəxs tərəfindən təmin edilir.

Qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.



* * *

**Sentyabrın 15-də Milli Məclisin Aqrar siyasət komitəsinin 2022-ci ilin payız sessiyasında ilk iclası keçirilib.**

Komitənin sədri Tahir Rzayev əvvəlcə Ermənistanın Azərbaycana qarşı son təxribatından söz açıb. O, döyüş toqquşmalarında şəhid düşən qəhrəman döyüşçülərimizə rəhmət, yaxınlarına səbir diləyib, yaralılarımızın tezliklə sağalmalarını arzulayıb.

İclasda şəhidlərimizin ruhu birdəqiqəlik sükutla yad edilib.

Sonra Tahir Rzayev iclasın gündəliyi barədə məlumat verib. Bildirilib ki, gündəliyə 9 məsələ daxil edilib. İlk iki məsələ Milli Məclisin 2022-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Aqrar siyasət komitəsində görülən işlər barədə hesabat və komitənin 2022-ci il payız sessiyası üçün iş planının layihəsi ilə bağlıdır.

2022-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə Aqrar siyasət komitəsində görülən işlər barədə komitə sədri bildirib ki, bu dövrdə komitənin 11 iclası keçirilib və 12 məsələ müzakirə olunub. Onlardan 10-unun qanun layihəsi olduğunu deyən komitə sədri sənədlər haqqında fikirlərini söyləyib, xüsusən ötən sessiyada qəbul olunan "Qida təhlükəsizliyi haqqında" qanunun əhəmiyyəti barədə danışıb.

Tahir Rzayev qeyd edib ki, komitə üzvləri istər plenar iclaslarda, istərsə də komitəyə təqdim olunan qanunların müzakirəsində, eyni zamanda aqrar sektorun inkişafı və ictimai-siyasi məsələlərə münasibətdə fəallıq göstəriblər. Həmçinin öz seçiciləri, şəhid ailələri və qazilərlə əlaqə saxlayaraq onların problemləri və qayğıları ilə yaxından maraqlanıblar.

Bildirilib ki, hesabat dövründə komitənin ünvanına 69 məktub, təklif, ərizə və şikayət daxil olub və bu müraciətlər araşdırılaraq qaldırılan məsələlərlə bağlı müvafiq tədbirlər görülüb.

Sessiya ərzində Aqrar siyasət komitəsi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi ilə "Aqrar sahədə yeni subsidiya mexanizminin tətbiqi" mövzusunda, Regional məsələlər komitəsi ilə "Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları yeni regional, sosial-iqtisadi, aqrar inkişafın ünvanıdır" mövzusunda birgə dinləmələr keçirib.

Aqrar siyasət komitəsinin iş planı ilə bağlı bildirilib ki, qarşıdakı sessiyada komitəyə daxil olacaq qanun layihələri ilə yanaşı, aqrar sahənin inkişafı üçün vacib məsələlərin müzakirəsi də planlaşdırılıb.

Komitə sədri gündəliyin üçüncü məsələsi olan "Azərbaycan Respublikası hökuməti ilə Özbəkistan Respublikası hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında" sazişin təsdiq olunması barədə qanun layihəsi ilə bağlı bildirib ki, sənəd iki dövlətin ərazilərini zərərli orqanizmlərin daxil olmasından qorumaq, həmçinin tərəflərin dövlətləri arasında məhsul dövriyyəsinin artmasına dəstək olmaq məqsədi ilə imzalanıb.

Sonra "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Latviya Respublikasının Qida və Baytarlıq Xidməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında" anlaşma memorandumunun təsdiq edilməsi barədə qanun layihəsi barədə məlumat verilib. Memorandumun Latviya ilə qida təhlükəsizliyi sahəsində əməkdaşlığı həyata keçirmək və inkişaf etdirmək məqsədi ilə imzalandığı diqqətə çatdırılıb.

Gündəliyin beşinci məsələsi - "Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında", "Maliyyə-sənaye qrupları haqqında" və "Torpaq icarəsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) uyğunlaşdırma məqsədi ilə hazırlanıb. Belə ki, Vergilər Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsi və Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin strukturuna daxil edildiyi üçün müvafiq qanunverici dəyişikliklər təklif edilib. "Torpaq icarəsi haqqında" qanunun 5-ci maddəsində isə "dövlət müəssisə, idarə və təşkilatlarının yerləşdiyi" ifadəsi daha geniş əhatəyə malik "dövlətə məxsus olan hüquqi şəxslərin istifadəsində olan" ifadəsi ilə əvəzlənir.

Gündəliyin altıncı və yeddinci məsələləri olan "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) və "Baytarlıq haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) şəhər (rayon) ərazisində baytarlıq yükünün daşınması üçün tələb olunan baytarlıq arayışının alınması ilə bağlı dövlət rüsumunun ləğv edilməsi ilə əlaqədar hazırlanıb.

Gündəliyin son iki məsələsi "Seleksiya nailiyyətləri haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Torpaq icarəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri də birinci oxunuşdadır. Qanun layihələri Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"nın 4.2-ci bəndinə əsasən hazırlanıb. Sənədlər vətəndaşlara elektron dövlət xidmətlərinin göstərilməsi işinin təkmilləşdirilməsinə və bu zaman onlardan tələb olunan sənədlərin minimuma endirilməsinə xidmət edir.

Gündəlikdəki məsələlərin müzakirəsində Aqrar siyasət komitəsinin sədr müavini Sabir Hacıyev, komitə üzvləri Eldar İbrahimov, Aydın Hüseynov, Azər Badamov, Emin Hacıyev, Müşfiq Cəfərov çıxış ediblər, fikirlərini bildiriblər, rəylərini və qeydlərini səsləndiriblər. Deputatlar bildiriblər ki, müzakirəyə təqdim olunan qanun layihələri vətəndaşların sənəd və ya arayışların təqdim edilməsi ilə bağlı işlərinin asanlaşdırılmasına, ölkədə Elektron Hökumət İnformasiya Sisteminin funksionallığının daha da yüksəldilməsinə xidmət edəcək. Deputatlar komitənin hesabatını və iş planını məqbul qiymətləndiriblər, müzakirəyə çıxarılan qanun layihələrini baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

* * *

**Sentyabrın 15-də Milli Məclisin Mədəniyyət komitəsinin 2022-ci il payız sessiyasında videokonfrans formatında ilk iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Qənirə Paşayeva son günlər sərhəddə Ermənistan tərəfindən törədilmiş təxribat nəticəsində qəhrəmancasına şəhid olmuş hərbi qulluqçularımıza Allahdan rəhmət, yaxınlarına səbir diləyib.

Sonra komitə sədri iclasın gündəliyinə daxil olan məsələləri təqdim edib. O, gündəlikdə 3 məsələnin olduğunu qeyd edib.

Mədəniyyət komitəsində 2022-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlər barədə məlumat verən komitə sədri bildirib ki, ötən müddət ərzində komitənin 8 iclası keçirilib, 20 məsələyə baxılıb. Komitədə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Sahibkarlıq fəaliyyəti haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Milli arxiv fondu haqqında" qanunda dəyişiklik edilməsi barədə və bir sıra digər qanun layihələri üç oxunuşda müzakirə edilib və plenar iclasda qəbul olunub.

Komitə sədri qeyd edib ki, komitə üzvləri mədəniyyət sahəsində ölkə daxilində və xaricində keçirilmiş bir sıra tədbirlərdə iştirak ediblər. O, bu tədbirlər və gələcəkdə keçirilməsi nəzərdə tutulan digər mədəniyyət hadisələri barədə ətraflı məlumat verib, komitə üzvlərinin ölkənin mədəniyyət qurumları ilə səmərəli əməkdaşlıq etdiyini söyləyib.

Diqqətə çatdırılıb ki, ötən sessiyalar ərzində vətəndaşlar tərəfindən komitənin ünvanına məktub, ərizə və şikayətlər daxil olub. Həmin müraciətlər müvafiq qaydada araşdırılıb və qeyd olunan problemlərin həlli üçün aidiyyəti qurumlara göndərilib. Hesabat dövründə həmçinin komitə üzvləri tərəfindən mütəmadi olaraq seçicilərlə görüşlər keçirilib, onları narahat edən məsələlərin həlli istiqamətində lazımi addımlar atılıb.

Sonra komitə sədri Mədəniyyət komitəsinin 2022-ci ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsini təqdim edib. Bildirib ki, payız sessiyasında qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinə baxılacaq. Habelə "Qeyri-maddi mədəni irsin qorunması haqqında" qanun layihəsinin, digər sənədlərin müzakirəsi, dinləmələrin keçirilməsi nəzərdə tutulub.

Daha sonra Qənirə Paşayeva gündəliyin üçüncü məsələsi - "Azərbaycan Respublikası hökuməti ilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı - İCESCO arasında İCESCO-nun Regional ofisinin yerləşməsi haqqında" Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi barədə danışıb. Bildirilib ki, sənəd ölkə Prezidenti tərəfindən Milli Məclisə təqdim edilib. Komitə sədri 2022-ci il mayın 20-də Bakı şəhərində imzalanmış bu sazişin ölkəmizin maraqlarına xidmət edəcəyini bildirib. Qeyd edilib ki, sazişdə ICESCO-nun Regional ofisinin Azərbaycanda yerləşməsi şərtləri və qaydaları müəyyən edilib. Sənəddə ICESCO-nun Bakı ofisinin immunitet və imtiyazları, onun rəsmilərinin statusu, hüquq və öhdəlikləri nəzərdə tutulub.

Müzakirələr zamanı komitənin sədr müavini Fazil Mustafa, komitənin üzvü Ülviyyə Həmzəyeva, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev çıxış ediblər. Çıxışlarda sərhəddə baş vermiş son hadisələr barədə fikirlər səsləndirilib, gündəlikdəki məsələlərə münasibət bildirilib.

İclasda Mədəniyyət komitəsində 2022-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlər qənaətbəxş hesab olunub, komitənin 2022-ci ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planı təsdiq edilib, "Azərbaycan Respublikası hökuməti ilə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı - İCESCO arasında İCESCO-nun Regional ofisinin yerləşməsi haqqında" Sazişin təsdiq edilməsi barədə qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Azərbaycanın müdafiə naziri ilə ABŞ müdafiə katibinin müavini arasında telefon danışığı olub

Sentyabrın 15-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovla Amerika Birləşmiş Ştatlarının müdafiə katibinin siyasi məsələlər üzrə müavini Kolin Kahl arasında ikincinin təşəbbüsü ilə telefon danışığı olub. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, telefon danışığı zamanı tərəflər arasında ikitərəfli hərbi əməkdaşlıq məsələləri, eləcə də Azərbaycan-Ermənistan dövlət sərhədində yaranmış qarşıdurma və hazırkı vəziyyət müzakirə edilib.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri "Türk şəhidliyi" abidəsini ziyarət ediblər

**Sentyabrın 15-də Bakının erməni-bolşevik işğalından azad edilməsinin 104-cü ildönümü münasibətilə Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndələri Bakıdakı "Türk şəhidliyi" abidəsini ziyarət ediblər.**



AZƏRTAC xəbər verir ki, abidənin önünə əklil və gül dəstələri qoyulub.

Yeni Azərbaycan Partiyasının nümayəndələri Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçmiş türk qardaşlarımızın əziz xatirəsini yad ediblər. Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini, sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan türk şəhidlərinin qəhrəmanlığı və fədakarlığı dərin hörmət və ehtiramla xatırlanıb.



# *AK Parti Sədrinin müavini:* "Türkiyə Ermənistanın təxribatlarına qarşı haqlı mübarizəsində qardaş Azərbaycanın yanındadır"

Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AK Parti) Sədrinin xarici əlaqələr üzrə müavini, Bursa millət vəkili Efkan Ala Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqova Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi genişmiqyaslı təxribat nəticəsində hərbi qulluqçularımızın şəhid olması ilə əlaqədar başsağlığı məktubu ünvanlayıb.

Məktubda deyilir: "Sentyabr 12-si gecə və sentyabrın 13-ü səhər saatlarında Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilanla sərhəddə Ermənistan ordusunun genişmiqyaslı təxribat və hücumu nəticəsində Azərbaycan Ordusunun 71 hərbi qulluqçusunun şəhid olduğunu böyük kədər hissi ilə öyrəndim. Sərhəd xəttindəki toqquşmalarda şəhid olan əsgərlərə Allahdan rəhmət, yaralılara şəfa diləyirəm.

Türkiyə olaraq "Bir millət, iki dövlət" düsturu ilə Ermənistanın təxribatlarına qarşı haqlı mübarizəsində qardaş Azərbaycanın yanında olduğumuzu bir daha ifadə etmək istəyirəm.

Sizə və Azərbaycan xalqına başsağlığı verir, kədərinizi ürəkdən bölüşürəm".

# Dünya və ənənəvi din liderlərinin VII Qurultayı davam edir

Dünya və ənənəvi din liderlərinin VII Qurultayında iştirak üçün Qazaxıstan Respublikasında səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə sentyabrın 15-də qurultayın ikinci iş günündə iştirak edib.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ikinci plenar iclasın sonunda VII Qurultayın yekun sənədi - Bəyannamə oxunub və qəbul olunub. QMİ sədri A.Paşazadənin bəyannaməyə dair verdiyi təkliflər nəzərə alınıb.

Qurultay çərçivəsində Şeyxülislam Allahşükür Paşazadə Səudiyyə Ərəbistanının İslam işləri, dəvət və irşad naziri Əbdüllətif Al əş-Şeyx ilə görüşüb.

Səmimi söhbət zamanı ölkələrimiz arasında əlaqələr, xüsusilə dini-mənəvi sahədə qarşılıqlı münasibətlər, əməkdaşlıq səviyyəsi yüksək dəyərləndirilib. Bildirilib ki, islami birlik istiqamətində həqiqi dini dəyərlərin təbliği və təşviqi böyük önəm kəsb edir. Xüsusilə mötədillik yönündə islami irşad məsələlərində müsəlman ölkələrinin işbirliyinin vacib əhəmiyyəti vurğulanıb. Azərbaycan dövlətinin dünya miqyasında islami həmrəylik ideyasının ardıcıl tərəfdarı olaraq fəal çıxış etməsi, dəyərli əməli səyləri rəğbətlə qeyd olunub.

Şeyxülislam A. Paşazadə Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında müxtəlif platformalarda əməkdaşlığın səviyyəsindən məmnunluğunu bildirib, din xadimlərinin beynəlxalq forumlarda birgə iştiraklarının əhəmiyyətini vurğulayıb. O, Səudiyyə Ərəbistanının İslam işləri, dəvət və irşad naziri Əbdüllətif Al əş-Şeyxi Azərbaycana dəvət edib. Səudiyyə Ərəbistanının rəsmisi öz növbəsində Şeyxülislam A.Paşazadəni ölkəsinə təşrif buyurmağa dəvət etdi.

Görüşdən sonra Şeyxülislam Allahşükür Paşazadə və Səudiyyə Ərəbistanının İslam işləri, dəvət və irşad naziri Əbdüllətif Al əş-Şeyx Səudiyyə Ərəbistanı krallığının televiziyasına müsahibə veriblər.

# "ASAN Login" sisteminə kibermüdaxilələr olub

Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi - Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsində 815 mənzilin 2022-ci il sentyabrın 15-də güzəştlə satışı prosesi başlamamışdan öncə ictimai əhəmiyyətli infrastruktur obyektləri olan dövlət orqanlarının informasiya sistemlərində əlavə yüklülük doğuran texniki nasazlıqlar aşkar edilib.

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, Mənzil İnşaatı Dövlət Agentliyinin, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, qeyd edilən halların hazırkı mərhələ üzrə güzəştli şərtlərlə mənzil seçimi prosesinin obyektiv nəticələrinə mümkün təsirləri nəzərə alınaraq mənzil satışının vaxtı təxirə salınıb.

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən başlanılmış ilkin araşdırmalar zamanı Elektron Hökumətin İnkişafı Mərkəzinin "ASAN Login" sisteminə ölkə hüdudlarından xaricdə yerləşən qlobal hostinqlərə məxsus İP aralıqlardan istifadə edilməklə irihəcmli kiberhücumun olduğu aşkarlanıb.

Faktla bağlı Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 273.4-cü (İctimai əhəmiyyətli infrastruktur obyektlərinin kompüter sisteminə və ya kompüter məlumatlarına qanunsuz müdaxilə) maddəsi ilə cinayət işi başlanılmaqla istintaq və əməliyyat-texniki tədbirlər həyata keçirilir.

Hazırda aidiyyəti dövlət orqanları ilə birgə qeyd olunan kiberhücum kanalları tam təsbit edilərək bloklanıb.

Güzəştli şərtlərlə mənzil seçiminin tarixi ilə bağlı ictimaiyyətə ən qısa zamanda məlumat veriləcək.



# Vətən sizə minnətdardır

**Torpağı igidlər Vətən edir. Keşiyində möhkəm, ayıq-sayıq dayanırlar ki, düşmən tapdağına çevrilməsin, qoynu gülüstana dönsün, evlərində işıqlar daha gur yansın, uşaq gülüşləri eşidilsin. Onlar qəhrəman babalarının yolu ilə gedirlər, Vətən adlı əmanətə göz bəbəkləri kimi baxırlar. Canlarını sipər edirlər.**

Sentyabrın 12-si gecəsindən başlayan Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatının qarşısı da Azərbaycan Silahlı Qüvvələri tərəfindən böyük şücaətlə alındı. Rəşadətli hərbçilərimiz düşmənə peşəkarlıqla, cəsarət və hünərləri ilə qətiyyətli cavab verdilər. Ermənistanın niyyətini yenidən puça çıxardılar. Azərbaycan tarixinə yeni qəhrəmanlıq səhifələri yazan hərbi qulluqçularımızdan 71 nəfəri şəhid oldu. Bu barədə Azərbaycan Respublikası Müdafiə Nazirliyi məlumat yaydı. Adları açıqlandı. Xalq öz qəhrəmanlarını tanıdı...

### Öndə Vətən sevgisi olanda...

Ömrün bahar çağlarındaydı onlar. Hərəsinin öz arzuları, özünəməxsus xəyalları vardı. Ancaq bir duyğu hər birinin qəlbinə hakim idi. O duyğunun adı Azərbaycan sevgisidir. Sentyabrın 12-si gecəsində düşmən təxribatının qarşısını almaq üçün ayağa qalxanda, silaha sarılanda da bütün duyğularının, bütün sevgilərinin, arzularının, xəyallarının önündə Vətənə məhəbbət vardı. Və onlar bir an belə tərəddüd etmədən Vətəni yağı düşməndən qorumaq naminə canlarını qurban verdilər.

Ata-analarının, bacı-qardaşlarının ümidi idi onlar. Elələri var ki, yollarına həyat yoldaşı göz dikmişdi, evinə dönəcəyi günləri sayırdı. Elələri də vardı, balasını doyunca qucağına alıb, öpüb oxşamamışdı. Elələri var ki, övladının dil açıb "ata" deyəcəyi günün həsrətindəydi. Eləsi də var ki, körpəsi bu dünyaya şəhid övladı kimi gələcək, ona qəhrəman atasını şəkillərindən tanıdacaqlar. Bəlkə də, eləsi var ki, sevdiyi qıza hələ könlünü açmamışdı...

Onların hər birinin qısa da olsa, öz ömür hekayələri var. İyirmi altı yaşlı şəhid gizir Səbuhi Əhmədovun özü də, qardaşı Sənan da körpə olanda valideynləri vəfat edib, onlar SOS kəndində böyüyüblər. Hərb sənətini seçdiyi gündən qardaşına həmişə "mənimlə fəxr edəcəksən", - deyib Səbuhi. Sentyabrın 13-ü sabahı Sənan şəhid düşdüyündən xəbərsiz olduğu Səbuhiyə zəng edib. Telefonu başqa birisi açıb. Sənana "Qardaşının qisası alındı", - deyib.

Səbuhi qardaşına verdiyi sözün üstündə durub. İndi onunla nəinki qardaş itkisi ilə yanıb qovrulan Sənan, bütün Azərbaycan fəxr edir.

İyirmi bir yaşlı Ümid İlqar oğlu Həsənov Quba rayonunun İsnovqışlaq kəndindən idi. Azərbaycan Ordusunda müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi xidmətə yeni başlamışdı. Atası vəfat etmişdi. Ümid ailələrinin tək oğlu, anasının və iki bacısının ümidiydi. Subay idi...

Qazaxın Kəmərli kəndindən olan şəhidimiz, Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu, baş gizir Azər Mustafa oğlu Məmmədovun iyirmi gün əvvəl toyu olmuşdu. Toyunun sədası hələ qulaqlardan getməmiş şəhid xəbəri gəldi.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanla dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində törətdiyi təxribatın qarşısını alarkən şəhid olan Azərbaycan Sərhəd Qoşunlarının hərbi qulluqçusu, kiçik gizir Elşən Sahib oğlu Babazadənin doğmaları isə onun toy gününü gözləyirdilər...

1996-cı ildə Qəbələ rayonunun Mıxlıqovaq kəndində dünyaya göz açan Elşənin on bir il qabaq anası vəfat edib. Atası Sahib üç övladını - bir oğlunu, iki qızını tək böyüdüb. Elşən Babazadə nişanlı idi, oktyabrda toyu olacaqdı...

### Qəhrəman Azərbaycan oğulları mənfur düşmənə yenidən xatırlatdılar...

Onların çoxu müharibə də görmüşdü, düşmənin mənfur xislətinə də bələd idi. Elə kiçik gizir Elşən Sahib oğlu Babazadə də 44 günlük Vətən müharibəsində iştirak etmişdi. O, iki ildən çoxdur ki, Azərbaycan Ordusunda müddətdən artıq hərbi qulluqçu kimi çalışırdı.

Xüsusi Təyinatlı Qüvvələrin giziri Əhədzadə Xəyal Əlövsət oğlu da Vətən müharibəsi iştirakçısı idi. O, "Azərbaycan Bayrağı" ordeni, "Vətən müharibəsi iştirakçısı", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Xəyal 1998-ci ildə Lənkəran rayonu Nərimanabad qəsəbəsində dünyaya gəlib. Lənkəran Şəhər Uşaq-Gənclər İdman Məktəbinin yetirməsi idi. Məktəblilər arasında 40 kiloqram çəki dərəcəsində Azərbaycan birinciliyinin qalibi və yeniyetmələr arasında ölkə çempionatının iştirakçısı olub...

Lerik rayonunun Əvilə kəndində dünyaya gələn şəhid baş çavuş Sadıxov Şəmistan Əbdülağa oğlu 2013-cü ildə Əfqanıstanda Sülhməramlı qüvvələrin sıralarında xidmət göstərib. 2016-cı il Aprel döyüşlərində və Vətən müharibəsində iştirak edib...

Vətən müharibəsində Vətənə Zəfər gətirən igidlər bilirdilər ki, düşmən namərddir. Ermənistan nə beynəlxalq təşkilatları, nə beynəlxalq ictimaiyyəti nəzərə alır, nə verdiyi sözə əməl edir, nə də atdığı imzaya görə məsuliyyət daşıyır. Təcavüzkar dövlət təxribata, münaqişələrə meyillidir. Girəvə axtarır. Qarşısındakı xalqın iradəsini, dövlətin gücünü görsə də, bilsə də, bəd niyyətindən əl çəkmir. Burunları əzilir, amma yenə də dərs almırlar. Vətən müharibəsində gördülər ki, Azərbaycanın hər əsgəri, hər zabiti qəhrəmandır. Azərbaycan oğulları döyüşdə fərarilik etməz, düşmən qarşısında əlləri titrəməz. Azərbaycanın qəhrəman övladları Vətəni darda qoymaz. Amma bunu yenə də unutdular. Odur ki, "dəmir yumruq" yenidən işə düşməli oldu. Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində sentyabrın 12-si gecəsindən başlayan döyüşlərdə igidlərimiz canlarını sipər edərək yenidən düşmənə gözdağı verdilər.

### İgidlərimizin hələ çox danışılacaq, yazılacaq qəhrəmanlıq dastanları var

Hər şəhid xəbəri bir ocağa od kimi düşdü. Neçə-neçə arzunu yandırıb kül etdi. Oğul çiynində son mənzilə getməli ikən şəhid oğlunu öz çiynində son mənzilə yola saldı atalar. Düşmən təxribatı nəticəsində şəhid olan hərbi qulluqçumuz, gizir Vadim Qocayevin atası Alik Qocayev isə oğlu ilə eyni gündə məzara qoyuldu. Gəncəyə gedən Alik Qocayev oğlunun cənazəsini təhvil almazdan öncə infarkt keçirdi və çatdırıldığı hospitalda dünyasını dəyişdi. Ata və oğlunun cənazəsi Bakıya gətirildi. Vadim Qocayevin Azərbaycan bayrağına bükülmüş cənazəsi ilə yanaşı, ürəktutmadan vəfat edən atasının da cənazəsi Qobustan rayonunda torpağa tapşırıldı. 1997-ci ildə Qobustanın Sündü kəndində dünyaya gələn Vadim də Vətən müharibəsi iştirakçısı idi. Biryaşlı qızı və doğulmamış körpəsi Vətənə əmanətdir.

Erməni silahlı qüvvələrinin genişmiqyaslı təxribatları nəticəsində şəhid olan hərbçimiz, Beyləqan rayonu İkinci Aşıqlı kəndindən olan Mirtalıb Mirheydər oğlu Ağazadənin anası və həyat yoldaşı dünyasını dəyişib. O da bir körpəsini və atasını Vətənin ümidinə qoyub getdi...

Ermənistan silahlı qüvvələrinin Azərbaycanla sərhəddə törətdiyi təxribat nəticəsində şəhidlik zirvəsinə ucalan gizir Kərimov Azad Zahid oğlu Qazax rayonunun Daş Salahlı kəndində doğulub böyümüşdü. İki övladı yadigar qaldı...

Mərd oğullar şəhid oldular. Cənazələrinin üzərindəki Azərbaycanın müqəddəs üçrəngli bayrağı doğmalarına təqdim edildi. Düşmən yenə Azərbaycan xalqının ürəyini sızlatdı. Ancaq qisası qiyamətə qoymayan igidlərimiz bu dəfə də düşmənə dərhal layiq olduqları cavabları verdilər. Azərbaycan Silahlı Qüvvələrinin uğurlu əməliyyatı nəticəsində Laçın, Kəlbəcər və Zəngilan istiqamətində sərhəddə Ermənistanın qurduğu bütün hərbi təyinatlı obyektlər darmadağın edildi, bölgədə bütün nəqliyyat-kommunikasiya sistemi, çox mühüm yüksəkliklər nəzarətə götürüldü, Ermənistanın xeyli sayda hərbi texnikası, yüz milyonlarla dollardan artıq dəyəri olan iki S-300 raketi, 200 nəfərdən çox canlı qüvvəsi, çoxlu sayda hərbi obyekti və onlarca postu məhv edildi.

Rəşadətli Azərbaycan Ordusu şəhidlərimizin qanını yerdə qoymadı. Onların qisasını aldı. Sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində şəhid olan Azərbaycan oğullarının hər birinin hələ çox danışılacaq, yazılacaq qəhrəmanlıq dastanı qaldı...

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Şəhid Murad Rəsulov Şabranda dəfn edilib





**Ermənistan silahlı qüvvələri tərəfindən dövlət sərhədində törədilən genişmiqyaslı təxribatın qarşısını alarkən şəhidlik zirvəsinə ucalan leytenant Rəsulov Murad İlqar oğlu Şabranda torpağa tapşırılıb.**



Dəfn mərasimində çıxış edənlər şəhidlik zirvəsinə ucalan zabitin şərəfli döyüş yolundan, Vətənə olan sevgisindən danışıblar.

22 yaşlı Murad Rəsulov Şabrandakı Şəhidlər xiyabanında torpağa tapşırılıb, məzarı üstünə əklil və tər qərənfillər qoyulub.

Tabut üzərinə çəkilmiş üçrəngli Azərbaycan bayrağı ailəsinə təqdim edilib.

# Ermənistan ordusunun dinc əhalini hədəfə alması hərbi cinayətdir

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında dəfələrlə vurğulamışdır: "Ermənistan terrorçu ölkədir. Birinci Qarabağ müharibəsi dönəmində bizə qarşı onlarca terror aktı törədilmişdir - metrolarda, avtobuslarda, gəmilərdə. Hesab edirəm ki, erməni terroru dünyada məşhur olan bir mənfur fakt kimi dünya tərəfindən qəbul edilməlidir". Dünya ictimaiyyətinə də məlumdur ki, Ermənistan silahlı birləşmələri 32 ilə yaxındır ki, BMT və digər beynəlxalq təşkilatların qətnamələrinə, habelə müraciətlərinə məhəl qoymadan Azərbaycana qarşı hərbi təcavüzünü davam etdirir, mülki əhalini hədəfə alır, dinc insanlara qarşı terror əməlləri törədir. Ermənistan bununla da 1949-cu il Cenevrə Konvensiyasını kobud şəkildə pozmaqla hərbi cinayətlər törədir.

Sentyabrın 12-si gecə saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin diversiya qruplarının Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər, Laçın və Zəngilan istiqamətlərində genişmiqyaslı təxribatı nəticəsində Kəlbəcər rayonu ərazisində heyvandarlıqla məşğul olan Goranboy rayonunun Veysəlli kəndində yaşayan Kəlbəcər rayonu Bozlu kənd sakini, 1975-ci il təvəllüdlü Asim Musayev və Goranboy rayonunun Qaraçinar kəndində yaşayan Kəlbəcər rayonu Ağdaban kənd sakini, 1984-cü il təvəllüdlü Arzuman Orucov müxtəlif dərəcəli ağır bədən xəsarətləri alıblar. Hazırda Asim Musayev Gəncə şəhəri Abbas Səhhət adına 1 nömrəli Xəstəxanada müalicə alır, onun vəziyyəti orta-ağır qiymətləndirilir. Arzuman Orucova isə ilkin tibbi yardım göstərildikdən sonra evə buraxılıb.

Xatırladaq ki, ermənilər 44 günlük Vətən müharibəsində döyüşçülərimizin əzmini görüb əsas güclərini dinc əhaliyə yönəltmişdilər, əhalini və mülki obyektləri intensiv şəkildə atəşə məruz qoymuşdular. Qarabağda gedən döyüşlərdə biabırcasına məğlubiyyətə uğradıqlarını hiss edən erməni silahlıları Gəncəni, Bərdəni, Tərtəri, Xızını, Abşeronu raket atəşinə tutmaqan belə çəkinməmişdilər. Cəbhə bölgəsindən uzaqda olan Azərbaycanın ikinci böyük şəhəri Gəncədə çoxmənzilli yaşayış binalarına "Skad" tipli ballistik raketlə hücum edilmişdi. Eləcə də günün-günorta çağı Bərdə şəhəri raket atəşinə məruz qalmışdı. Bir gündə 21 mülki şəxs həyatını itirmişdi. Ümumiyyətlə, içərisində uşaqlar olmaqla onlarca dinc əhali faciəli şəkildə həlak olmuşdu.

Birinci Qarabağ savaşında da ermənilərin Azərbaycana qarşı müharibə cinayətləri terror aktları ilə müşayiət olunmuşdu. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni-sovet hərbi qüvvələri Xocalı şəhərini zəbt etmişdilər. Düşmən əhatəsində olan şəhərdə qalmış təqribən 2500 nəfər əhali Ağdam rayonuna çatmaq ümidi ilə oranı tərk etməli olmuşdu. Şəhəri yerləyeksan etmiş erməni silahlıları dinc əhaliyə divan tutmuşdular. Bu qırğın nəticəsində 63 nəfəri uşaq, 106 nəfəri qadın və 70 nəfəri qoca olmaqla 613 nəfər mülki əhali həlak olmuşdu. 8 ailə tamamilə qətlə yetirilmiş, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirmiş, 487 nəfər yaralanmışdı ki, onlardan 76 nəfəri uşaq olmuşdu. Faciə zamanı 1275 nəfər əsir götürülmüş, 150 isə nəfər itkin düşmüşdü.

Əzəli torpaqlarımız olan Xocavənddə, Malıbəylidə, Qaradağlıda və digər azərbaycanlı kəndlərində erməni vandalları tərəfindən yüzlərlə dinc insanların həyatına son qoyulmuş, neçə-neçə ağlagəlməz faciə törədilmişdi. 1991-ci il dekabrın 19-da Xocavənd kəndi, 1992-ci il fevralın 12-də isə Malıbəyli kəndi işğal edilərək yandırılmışdı. 1992-ci il yanvarın 25-də məlum "Daşaltı əməliyyatı" zamanı həlak olduğu güman edilən 64 soydaşımızın meyiti tapılmamış, əsirlər qaytarılmamışdı. Ondan 20 gün sonra erməni quldurları xarici muzdluların köməyilə hər tərəfdən əlaqəsi kəsilmiş Qaradağlı kəndinə hücuma keçmişlər. Hücum zamanı biri qadın olmaqla, 14 nəfər kənd sakini həyatını itirib, qalanları əsir götürülmüşdü. Kəndin Bəylik bağı adlanan yerində 23 sakini erməni cəlladları güllələmiş, yaralılar diri-diri silos quyusuna tökülərək üstləri torpaqlanmışdı. Dinc əhalinin bir hissəsi Qaradağlı-Xankəndi yolu üzərində yerləşən erməni kəndlərində maşınlardan düşürülüb və nümayişkaranə şəkildə güllələnmişdi. Girovluqda olan 8 nəfər kənd sakini işgəncələrlə qətlə yetirilmişdi. Mülki əhaliyə qarşı bu kimi terror əməlləri bölgənin digər kəndlərində də həyata keçirilmişdi.

Vətən müharibəsi zamanında da yüzdən çox mülki vətəndaşımızın həyatına son qoyulmuş, 416 nəfərdən çox mülki şəxs yaralanmışdır.

Bütün bunlar hərbi cinayətdir. Cinayətkarlar isə gec-tez əməllərinə görə cavab verəcəklər.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Park şəhidin adını daşıyacaq

Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü hər şeydən üstün tutan, bu yolda ən uca zirvəyə - şəhidlik məqamına yüksələn igid Vətən oğullarından biri də gizir Nağıyev Anar Sahib oğludur. Bütün şəhidlərimiz kimi, qəhrəman gizirin də adı rayon ictimaiyyəti tərəfindən həmişə hörmətlə çəkilir.

Bu günlərdə igid Azərbaycan oğlunun adının əbədiləşdirilməsi üçün irəli sürülən təklif müsbət qarşılanmışdır. Şəhidin vaxtilə yaşadığı Qazaxın Ürkməzli kəndində onun büstü qoyulmaqla xatirəsini əbədiləşdirən park salınacaq.

İgid Vətən oğlunun əziz xatirəsini dərin ehtiramla yad edən rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov Ürkməzli kəndində olmuş, şəhidin ailə üzvləri ilə görüşmüşdür. Söhbət zamanı o, Anar kimi qəhrəman, cəsur oğullarımızın daim qəlblərdə yaşayacağını diqqətə çatdırmış, Azərbaycan xalqının qüruru, fəxri olan bütün şəhidlərimizin, o cümlədən də Anarın xatirəsinin daim əziz tutulacağını qeyd etmişdir.




Sonra şəhidin anası Məlahət Nağıyeva çıxış edərək Anarın adını daşıyacaq parkın yaradılmasını, büstünün qoyulmasını onun xatirəsinin əbədiləşdirilməsi istiqamətində atılan nümunəvi addım kimi qiymətləndirmişdir. Yaradılacaq parkdan istifadə edən hər kəsin şəhidin ruhuna dua oxumaqla bərabər, həm də onun haqqında məlumat əldə edəcəyini bildirmiş, gələcək nəsillərin vətənpərvər ruhda böyüməsi istiqamətində böyük töhfə olacağını diqqətə çatdırmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Şəhidin xatirəsinə bulaq kompleksi açılıb

Lənkəran rayonunun Sütəmurdov kəndində Vətən müharibəsi şəhidi, 2001-ci il təvəllüdlü Qüdrət Tofiq oğlu Məmmədzadənin doğum günündə onun adını daşıdığı küçədə xatirəsinə inşa edilmiş bulaq kompleksinin açılışı olub.



Bu münasibətlə keçirilən mərasimdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, rəsmi şəxslər, məktəblilər, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edənlər bildiriblər ki, şəhidlərin adının əbədiləşdirilməsi, onların ailə üzvlərinin dövlət tərəfindən qayğı və diqqətlə əhatə olunması Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gündəlik xüsusi nəzarətində olan məsələlərdəndir.

Şəhidin atası Tofiq Məmmədov isə çıxışında qeyd edib ki, dövlətin və el-obanın şəhid ailələrinin ağrı və acılarına şərik çıxması, daim yanlarında olaraq qayğı və istəkləri ilə maraqlanması onların özlərini tənha hiss etməmələrinin əsas səbəblərindəndir. "Təsəllimiz övladımın qalib ordunun qəhrəmanı olmasıdır", - deyən T.Məmmədov hər zaman dövlətin qayğı və diqqətini hiss etdiklərini, şəhid ailələrinə xüsusi ehtiram və hörmətlə yanaşıldığını bildirərək bütün bunlara görə minnətdar olduğunu vurğulayıb.

Tədbir Sütəmurdov kənd tam orta məktəbinin şağirdlərinin ifasında qəhrəman Vətən övladlarına həsr olunmuş ədəbi-bədii kompozisiya ilə davam etdirilib.

Daha sonra Vətən müharibəsində xüsusi qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucalmış Qüdrət Məmmədzadənin Sütəmurdov kənd qəbiristanlığındakı məzarı ziyarət olunub, şəhidin məzarı üzərinə gül dəstələri düzülüb, müqəddəs ruhuna dualar oxunub.

Qeyd edək ki, şəhid Qüdrət Məmmədzadə ölümündən sonra Prezidentin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

***Ağaddin BABAYEV,***
***"Lənkəran" qəzetinin əməkdaşı***





# Ağalıda 29 ildən sonra ilk zəng çalındı

**İşğaldan azad edilmiş ərazilərdə infrastruktur layihələri uğurla reallaşdırılmaqdadır. Bu layihələrin həyata keçirilməsi istiqamətində işlər davam etdirilir.**

O cümlədən təhsil infrastrukturu da müvəffəqiyyətlə qurulur, yeni məktəblərin təməli qoyulur. Ərazilərimizi işğal altında saxladığı 30 il müddətində vandal düşmən təhsil müəssisələrini də tamamilə dağıdıb. Statistikaya əsasən, bu torpaqlarımızda işğaldan əvvəl ümumilikdə 259 məktəbəqədər təhsil, 673 ümumi təhsil, 40 məktəbdənkənar, 14 peşə təhsili, 7 orta ixtisas təhsili olmaqla 993 müəssisə fəaliyyət göstərib.

Azərbaycan güclü iqtisadiyyatının hesabına Böyük qayıdış prosesinə start verib və ilk olaraq zəngilanlıların doğma torpaqlarına qayıdışı baş tutub. Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilanın Ağalı kəndində Bilik günündə yeni məktəb binası istifadəyə verilib. Məktəbdə 29 ildən sonra ilk zəng çalınıb. Düşmən təxribatı nəticəsində şəhidlərimizin olmasını nəzərə alaraq ölkəmizin bütün ümumi təhsil müəssisələrində olduğu kimi, Ağalı kənd məktəbində də Bilik günü təntənəli qeyd edilməyib. İlk olaraq Azərbaycanın Dövlət himni səsləndirilib. Daha sonra şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Məktəbdə ilk dərs "Qarabağ Azərbaycandır!" mövzusuna həsr olunub.

## Sinif otaqlarında "ağıllı lövhə"lər quraşdırılıb

Ağalı məktəbi yeni və müasir texnologiyalarla təchiz edilib. Dövlət tərəfindən gənclərimizin savadlı, vətənpərvər ruhda yetişdirilməsi üçün bütün şərait yaradılıb. 360 şagird yerlik ikimərtəbəli məktəbdə təhsil almaq üçün 65 şagird qeydiyyatdan keçib. 2022-2023-cü tədris ilində şagirdlərin təlim-tərbiyəsi ilə 14 müəllim məşğul olacaq.

İnnovativ tikinti materiallarından istifadə olunmaqla tikilən məktəb geniş ərazini əhatə edir. Məktəbin birinci mərtəbəsinin sahəsi 1619,5 kvadratmetr, ikinci mərtəbəsinin sahəsi isə 1044,1 kvadratmetr, texniki döşəməaltı mərtəbənin sahəsi 1017,4 kvadratmetr olmaqla, ümumi sahəsi 3681 kvadratmetr təşkil edir. Məktəbin birinci mərtəbəsində direktor, müəllimlər, müavin otaqları, tibb məntəqəsi, 2 texniki, 2 texnologiya, ibtidai siniflər üçün 4 sinif otağı, geniş, təmiz və işıqlı yemək zalı və bufet, qapalı idman zalı, oğlanlar və qızlar üçün ayrı olmaqla soyunub-geyinmə və duş otaqları, məşqçi otağı, hərbi hazırlıq otağı düzəldilib. İkinci mərtəbədə isə 9 sinif otağı, informatika otağı, biologiya, kimya laboratoriyaları, kitabxana və oxu zalı, geniş və işıqlı akt zalı və digər otaqlar yerləşir. Məktəbin həyətində geniş və müasir tələblərə cavab verən idman meydançası yaradılıb. Bütün sinif otaqları və akt zalı "ağıllı lövhə"lər və akustik səs sistemi ilə təchiz olunub. Siniflərdə, akt zalında və dəhlizdə kameralar quraşdırılıb.

## İşğaldan azad edilmiş ərazilərimizdə müasir məktəblər tikilir

"Ağıllı kənd"də müasirlik təkcə qurulan infrastrukturla məhdudlaşmır, burada təhsilə yeni yanaşmanın tətbiqi də mühüm rol oynayır. İşğaldan azad olunmuş digər ərazilərdə də mərhələli şəkildə belə təhsil müəssisələrinin açılması nəzərdə tutulur.






Bakıdakı Heydər Əliyev adına Müasir Təhsil Kompleksi ilə canlı bağlantıda Prezident İlham Əliyev deyib: "Əminəm ki, Ağalı məktəbi ilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksinin arasında əlaqələr bundan sonra da davam edəcək. Burada oxuyan uşaqlar gələcəklər Bakıya, sizin şagirdlərinizlə, eyni zamanda müəllim heyəti ilə görüşəcəklər. Yəni bu təmaslar davamlı olmalıdır, həm distant təhsillə bağlı, eyni zamanda canlı təmaslara da böyük ehtiyac var. Yaxın günlərdə ilk vətəndaşlar burada məskunlaşacaqlar. Ondan sonra yaxşı olardı ki, siz müəllimlər və eyni zamanda uşaqlar buraya gələsiniz, bu gözəlliyi görəsiniz, necə deyərlər, bu videobağlantı artıq canlı bağlantıya keçsin".

## "Uşaqlıq arzum reallaşdı"

Məktəbdə quraşdırılan zəng də Bilik gününün iştirakçılarının diqqətini çəkib. Bu zəng Ağalı kənd məktəbinin dağılmış binasından çıxarılıb. 29 il susan zəng yenidən Şərqi Zəngəzurda səslənib.

Ağalı kənd tam orta məktəbinin direktoru Nərmin Həsənova bildirdi ki, məktəb innovativ texnologiya ilə tam təmin edilib: "Kəndə insanların köçmə prosesi davam edir, eyni zamanda ətrafda bəzi qurumlarda işləyən əməkdaşların övladlarının da burada təhsilə cəlb olunmasını nəzərdə tutmuşuq. Məktəbimizdə ilk zəngin çalınması biz müəllimləri, şagirdləri çox sevindirdi. Müəllimlərimiz xoşbəxtdirlər ki, çoxdan həsrətini çəkdiyimiz kəndimizdə dərs deyəcəklər. Bu hissləri sözlə ifadə etmək çətindir. Məktəbimiz müasir texnologiya ilə təmin edilib. Məktəbimizdə hər fənn üzrə bir müəllim təyin edilib. Onlar həm test, həm də müsahibə mərhələsindən uğurla keçiblər. Bütün şagirdlərimizə çanta, planşet, kitablar paylanılıb. Bu şəraiti bizə yaradan Prezidentimizə minnətdarlığımızı bildirirəm".

Məktəbin ibtidai sinif müəllimi Şəmsiyə Şəmsəddinova deyir ki, Vətən müharibəsində əldə etdiyimiz qələbə onu uşaqlıq arzusuna çatdırıb: "2020-ci ildə Vətən müharibəsi başlayan zaman 4-cü kursda təhsil alırdım və növbəti il üçün imtahanlara hazırlaşırdım. Müəllim olmaq və Qarabağ torpaqlarında öz fənnimi tədris etmək uşaqlıq arzum idi. Ali Baş Komandanımızın qətiyyəti, igid oğullarımızın şücaəti və xalqımızın birliyi nəticəsində biz zəfər çaldıq. Əldə etdiyimiz qələbədən sonra uşaqlıq arzum, Qarabağda müəllim olmaq istəyim gerçəkləşdi. Əslində, ailəm daha yaxın məsafədə işləməyimi istəyirdi. Amma mənim bir fikrim var idi - yalnız Qarabağ! Ağalı kəndinə qeydiyyatı görəndə çox sevindim. Heç kimə demədən qeydiyyatdan keçdim. Bu gün Zəngilan rayon Ağalı kənd tam orta məktəbinin müəllimiyəm. Bununla qürur duyuram. Mən bu torpaqlara bağlıyam. İnamım vardı ki, gün gələcək bu torpaqlarda müəllim kimi fəaliyyət göstərəcəm. Bu yolda canından keçmiş şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə şəfa, əsgər və zabitlərimizə cansağlığı diləyirəm".

Məktəbin şagirdləri də sevinc içərisində idilər. Çünki artıq onlar məcburi köçkün deyillər, sıxıntılarla yaşamırlar. Şagirdlərin bu sevincli günlərində hansı hissləri keçirdiklərini öyrəndik. Hüseyn Zeynalov müasir üslubda tikilən məktəbdə təhsil almağın fərəhini bizimlə bölüşüb: "Bu il Ağalı kənd tam orta məktəbində 7-ci sinfə başladım. Bunun üçün çox sevincliyəm. Bizim yaxşı təhsil almağımız üçün hər cür şərait yaradılıb. Söz verirəm ki, dərslərimi yaxşı qiymətlərlə oxuyacam".

Bundan öncə Sumqayıt şəhər 1 nömrəli məktəbdə oxuyan Ayla Rəfiyeva da sevinc dolu hisslərini bölüşdü: "Kəndimizdə oxuduğum üçün çox sevinirəm. Evimiz də yaxındır. Artıq yeni dostlarım da var. Yaxşı oxuyacağıma söz verirəm".

## Şagirdlər nağdsız ödəniş edə biləcək

Zəngilan rayonu Ağalı kənd tam orta məktəbinin şagirdlərinə "Smart təhsil kartları" təqdim edilib. "Smart təhsil kartı" layihəsi Ağalı kəndində yaradılmış nağdsız ödəniş infrastrukturundan istifadənin stimullaşdırılması məqsədilə tətbiq edilib. Layihə çərçivəsində həm məktəbli kartı, həm də nağdsız ödənişlərin həyata keçirilməsinin dəstəklənməsi funksionallıqlarını özündə birləşdirən smart təhsil kartları 47 şagirdə təqdim edilib. Təqdim olunan smart kartlar şagirdlərə məktəbə giriş, eyni zamanda məktəbin yeməkxanasında nağdsız ödəniş formasından istifadə etmək imkanı verəcək. Qeyd edək ki, sözügedən kartlar ölkənin bir sıra peşə və ali təhsil müəssisələrində tətbiq olunur. "Smart təhsil kartı" müəllim və tələbələrə universitet, kitabxana və oxu zallarına giriş imkanı verməklə yanaşı, eyni zamanda təqaüdlərin alınması, ölkə daxili və xaricində istənilən ödənişlərin həyata keçirilməsi funksionallıqlarını özündə ehtiva edir.

Qeyd edək ki, 2021-ci il aprelin 26-da Prezident İlham Əliyev tərəfindən Zəngilanın Birinci, İkinci, Üçüncü Ağalı kəndlərini əhatə edən birinci "ağıllı kənd" layihəsinin təməli qoyulub. Bu il mayın 27-də "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

***Elşən YƏHYAYEV,***
***"Azərbaycan"***

# Xalq sülh, hərbi xunta isə revanş istəyir

## Ermənistanda başlanan etiraz dalğası ölkəni yeni xaosa sürükləyir



**Ermənistan silahlı qüvvələrinin son sərhəd təxribatlarına Azərbaycan Ordusunun qətiyyətli cavabından sonra qarşı tərəf sülh müqaviləsinin nə dərəcədə vacib olduğunu bir daha aydın şəkildə anlamağa başladı. Artıq hadisələrin inkişaf axarı göstərir ki, Ermənistanın baş naziri Nikol Paşinyan sülh müqaviləsinin imzalanmasında maraqlıdır və bu xüsusda ölkə parlamentində müvafiq fikirlər də səsləndirib.**





Ancaq revanşist qüvvələr dərhal hərəkətə keçərək növbəti dəfə Ermənistan və Azərbaycan arasında sülh prosesini əngəlləməyə cəhd ediblər. Elə Ermənistan parlamentinin qarşısında son etirazlar da məhz keçmiş hərbi xunta təmsilçilərinin təşkil etdiyi aksiya kimi qiymətləndirilir. Ancaq istər onlar, istərsə də antiazərbaycançı mövqeyində olan digər qüvvələr başa düşməlidirlər ki, sülh müqaviləsinin alternativi yoxdur və Azərbaycan istədiyinə nail olmaq üçün bütün imkanlara malikdir.

Qeyd edək ki, Paşinyana qarşı impiçment prosesinin başlanması ilə bağlı sənədin altına müxalifət fraksiyalarından olan 35 deputat imza atıb. Amma bunu başa çatdırmaq üçün hakim "Vətəndaş Müqaviləsi"ndən daha 18 deputatın imzası lazımdır.

Etirazlarda səsləndirilən fikirlərdən aydın olur ki, xalq birmənalı şəkildə Sarkisyan-Koçaryan koalisiyasına da yox deyir. Aksiyada iştirak edən Orik Ovanisyan adlı sakin deyib ki, səsləndirilən fikirlər niyə bəzilərini narahat edir: "Biz yalan danışmırıq. Öz vətəndaş mövqeyimizi nümayiş etdiririk. Bizlərə keçmiş hakimiyyət nümayəndələrinin adamları deyirlər. Çəkinmədən fikrimi bildirirəm. Sarkisyan da, Paşinyan da, hər ikisi eyni zibildir".





Anton Melkumyan adlı etirazçı isə deyib ki, Paşinyan Ermənistana xəyanət etdi: "Bundan əvvəlki dövrdə Sarkisyan vətənimizi, zavodlarımızı, torpaqlarımızın yarısını quldur oliqarxlara, yarısını da xaricilərə satdı. Onun rəhbərliyi altında Ermənistan xaricilər üçün gəlir mənbəyinə çevrildi. Paşinyan gəldikdən sonra da dəyişən bir şey yoxdur. Hər ikisi xalqı yox, öz gələcəklərini fikirləşiblər".

Son qarşıdurma zamanı həlak olan əsgər Manvel Qasparyanın atası Henrix Nikol Paşinyana müraciət edərək soruşub ki, bütün milləti aldatdığına və övladlarımızın ölümünə səbəb olunduğuna görə nə zaman həbs olunacaqsan: "Müharibə edə bilmirsənsə, bunu açıq söyləyərdin. Boş yerə övladlarımızı qırdın. Mən mühakimə tələb edirəm. Bizə "Artsax" (red. Qarabağ) lazım deyil. Təmiz yerevanlıyam. Övladımın o torpaqlarda nə işi var idi axı? Səni yandırmaq kifayət deyil!"

"4rd.am" saytı aksiyada feysbuk sosial şəbəkəsindəki səhifəsindən canlı yayım açaraq etirazçılara "Sülh müqaviləsi Ermənistan üçün təhlükəli sayıla bilərmi?" sualını ünvanlayıb. Bir çox etirazçı qorxmadan, çəkinmədən müstəqil şəkildə fikirlərini ifadə ediblər. Onların sırasında müəllim, həkim, iqtisadçı, mühəndis, biznesmen, usta, idmançı fikirlərinə belə rast gəlmək mümkündür.

Məsələn, ixtisasca iqtisadçı olan Stepan Qriqoryan bildirir: "Acı həqiqət olsa da, demək lazımdır. İlham Əliyev yenə Paşinyanı qorxuya salıb. O, hər zaman bizim rəhbərdən çox öndə olduğunu göstərə bilib. Azərbaycan Prezidenti hər gün müxtəlif bəyanatlar verir, bizimki də qorxudan dediyi fikirləri təkzib edir. Hələ üstəlik qorxusundan evinə də gedə bilmir. Acı mənzərədir".

Robert Mkrtçyan adlı biri isə açıqlamasında deyib ki, İlham Əliyev xalqın bütün arzularını gerçəkləşdirir. Əslində, sülh müqaviləsinin imzalanması hər birimiz üçün möhtəşəm olardı. Bu gün etirazlara yığışanlar heç də müharibə, "Artsax" istəmirlər. Yaxşı gələcək arzulayırlar. Etiraf etmək lazımdır ki, o torpaqlar Azərbaycanındır. Biz daha ölüm istəmirik".

Baş verən hadisələrin fonunda Ermənistan parlamentində dava düşüb. "Hayastan" fraksiyasının deputatı Qeqam Manukyan çıxış edərkən hakimiyyət əleyhinə sərt ifadələr səsləndirib. Deyib ki, Paşinyan Rusiya sülhməramlı qüvvələrinin əvəzinə BMT sülhməramlılarını gətirmək istəyir. Ermənistan dövlətçiliyin məhv edilməsi təhlükəsi ilə üzləşib: "Mən bura on minlərlə soydaşımızın, bir neçə saat ərzində kortəbii şəkildə Baqramyan prospektinə axışan insanların sözlərini sizə çatdırmaq üçün gəlmişəm. Dövlətçiliyin məhv edilməsi təhlükəsi ilə üz-üzəyik. Dəhşətli vəziyyət yaranıb. Yalnız bir çıxış yolu var. Yeni hökumət, yeni hakimiyyət, bizi bu vəziyyətdən çıxara biləcək yeni baş nazir gəlməlidir. Nikolu xilas etməyin vaxtı deyil. Vətəni xilas etməyin vaxtıdır. Bir anlıq düşünün ki, hamınıza satqın damğası vurulacaq".

Göründüyü kimi, sonuncu təxribatları zamanı da hərbi məğlubiyyətə uğrayan Ermənistan tarixinin ən ağır və əzablı günlərini yaşayır. Hazırda ölkədə bütün sahələrdə dərin xaos hökm sürür. Bütövlükdə, proseslərin gedişi Ermənistanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Hərbi vəzifəli şəxsdən hədə-qorxu ilə pul tələb edən xəbər portalının rəhbəri həbs olunub

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən "realxeber.org" internet saytının və eyniadlı yutub kanalının idarəçisi Zaur Qafarovun hərbi qulluqçudan barəsində həqiqətə uyğun olmayan rüsvayedici məlumatları yayma hədəsi ilə pul tələb etməsi barədə Dövlət Təhlükəsizliyi Xidmətindən daxil olmuş məlumat əsasında əməliyyat-axtarış tədbirləri keçirilib.

Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidmətinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, əməliyyat-axtarış tədbirləri ilə Zaur Qafarovun video-foto montaj vasitəsilə İkinci Qarabağ müharibəsi iştirakçısı olmuş hərbi vəzifəli şəxs barəsində sonuncunun guya hərbi qulluqçu adına yaraşmayan işlərlə məşğul olmasına dair nüfuzdan salan və həqiqətə uyğun olmayan videoçarx hazırlayaraq idarə etdiyi media platformalarına ictimaiyyətə açıq şəkildə qəsdən yerləşdirməsinə, həmin videogörüntüləri daha geniş ictimai kütlə arasında yaymaqla hədələyib bunun müqabilində sonuncudan pul tələb etməsinə əsaslı şübhələr müəyyən edilib.

Toplanmış ilkin sübutlar əsasında Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmaqla, Zaur Qafarova həmin məcəllənin 182.1-ci (hədə-qorxu ilə tələb etmə) maddəsi ilə ittiham elan edilib və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda təqsirləndirilən şəxsin eyni xarakterli əməllərindən zərər çəkən digər şəxslərin müəyyənləşdirilməsi istiqamətində istintaq davam etdirilir.

# Paytaxtda 26, bəzi rayonlarda isə 32 dərəcə isti olacaq

**Azərbaycanda sentyabrın 16-na gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək, gündüz mülayim cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturunun Abşeron yarımadasında gecə 19-21°, gündüz 24-27° isti, Bakıda gecə 19-21°, gündüz 24-26° isti olacağı ehtimal edilir.

Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi şərq rayonlarında qısamüddətli yağış yağacağı proqnozlaşdırılır. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 17-22°, gündüz 28-32° isti, dağlarda gecə 8-13°, gündüz 15-20° isti olacağı bildirilir.

# İŞİMİZ, GÜZƏRANIMIZ




## IGB-nin gələn ay kommersiya fəaliyyətinə başlaması gözlənilir

### Bu sistemlərarası qaz kəməri Bolqarıstan və Cənub-Şərqi Avropa üçün mühüm əhəmiyyət kəsb edəcək

**"Artan ehtiyacı təmin etmək üçün bizim sıx əməkdaşlığa və əlaqələndirməyə ehtiyacımız var. Bu məqsədlə biz artıq rəsmi olaraq Avropa İttifaqı və Azərbaycan arasında enerji ilə bağlı dialoqa start vermişik". Bu sözləri Prezident İlham Əliyev cari ayın əvvəlində İtaliyanın Çernobbio şəhərində "The European House - Ambrosetti" beyin mərkəzinin keçirdiyi beynəlxalq forumda deyib.**



Dövlət başçısı xüsusilə son dövrlər Azərbaycan qazına tələbatın artdığını bir daha diqqətə çatdırıb: "Burada interkonnektorlar ilə bağlı müzakirələr gedir və onlardan biri - Yunanıstan-Bolqarıstan interkonnektoru istismara verilməyə yaxındır. Həmin qəbildən olan digər layihələr də var. İonik-Adriatik boru kəməri layihəsi var ki, o, Azərbaycan qazını üç Balkan ölkəsinə çatdıracaq. Ümumilikdə deyə bilərəm ki, Rusiya-Ukrayna müharibəsi başlayandan biz qaz ixracının həcminin artırılması və ya ixraca başlanılması ilə bağlı 10-dan artıq ölkədən rəsmi müraciətlər almışıq. Burada bizdən bu vaxta qədər onsuz da qaz alan ölkələr də var - Türkiyə, Gürcüstan, İtaliya, Bolqarıstan və digərləri".

Beləliklə, Azərbaycan qazının Bolqarıstan üçün də əhəmiyyəti böyükdür. Təsadüfi deyil ki, o, ölkəmizdən idxal etdiyi mavi yanacağın artırılmasında maraqlıdır. Yeni İnterconnector Greece-Bulgaria - Yunanıstan-Bolqarıstan İnterkonnektoru (IGB) məhz bu məqsədlə tikilib.

IGB sistemlərarası qaz kəməri Bolqarıstanın "Bulqartransqaz" və Yunanıstanın qaz şəbəkəsini birləşdirəcək. İnterkonnektor Yunanıstanın Komotini stansiyasından Bolqarıstanın Stara Zaqora şəhərinə qədər uzanır. Kəmərin uzunluğu 182 kilometr, diametri 32 santimetrdir, boruları isə yerin altından ən azı 150 santimetr dərinlikdə keçir.

Boru kəməri Bolqarıstanın "Energy BEH" enerji şirkəti, İtaliyanın "Edison" və Yunanıstanın DEPA şirkətləri arasında təşkil olunmuş birgə müəssisə tərəfindən tikilib. Yəni bu, tamamilə yeni marşrutdur.

IGB Trans-Adriatik Qaz Boru Kəmərinə (TAP), Yunanıstanın Milli Qaz Sisteminə və gələcəkdə Yunanıstanın liman şəhəri Aleksandrupolisdəki üzən LNG reqazifikasiya qurğusuna birləşdiriləcək. Eyni zamanda IGB-nin gələcəkdə Yunanıstandan Bolqarıstana, oradan isə Serbiya, Şimali Makedoniya, Rumıniya, Macarıstana və digər yerlərə təbii qazı çatdırması planlaşdırılır.

Hazırda qaz Bolqarıstana Yunanıstanın sərhəd nöqtəsindəki (Kula-Sidirokastro) mövcud xətlə nəql edilir. Bu da Azərbaycan qazının Bolqarıstana idxalını azaldır. Yəni interkonnektorun olmaması ilə əlaqədar Bolqarıstan Azərbaycandan nəzərdə tutduğundan az həcmdə qaz nəql edə bilir. Bununla belə Azərbaycan ötən ildən indiyə kimi bu ölkəni 555 milyon kubmetr təbii qazla təchiz edib.

Yeri gəlmişkən qeyd edək ki, hər il "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının Bakıda keçirilən toplantılarında Bolqarıstanın yüksək vəzifəli şəxsləri də iştirak edirlər və sözügedən layihənin onların ölkəsi üçün önəm daşıdığını vurğulayırlar. Bu il fevralın 4-də keçirilən 8-ci iclasda Bolqarıstanın energetika naziri Aleksandr Nikolov demişdir: "Bolqarıstanın strateji tərəfdaşı olan Azərbaycandan sabit və şaxələndirilmiş təchizatın həyata keçirilməsi enerji qiymətlərinin yüksək dəyişkənliyinin iqtisadiyyata və cəmiyyətə mənfi təsirlərini azaltmaq üçün şərtdir. Bu kontekstdə Bolqarıstan Azərbaycandan təchizatın artırılmasında maraqlıdır. Bir ildən çoxdur ki, Azərbaycandan "Cənub qaz dəhlizi" vasitəsilə Bolqarıstana müntəzəm olaraq təbii qaz tədarük olunur".

Bu günlərdə Azərbaycanın energetika naziri Pərviz Şahbazovun ölkəmizdə səfərdə olan Bolqarıstanın iqtisadiyyat və sənaye naziri Nikola Stoyanovla görüşündə də məhz ölkəmizdən qazın tədarükü, eləcə də ikitərəfli enerji əməkdaşlığına dair məsələlər müzakirə edilib. Bir daha diqqətə çatdırılıb ki, Bolqarıstanla dostluq və tərəfdaşlıq münasibətləri enerji əməkdaşlığı ilə getdikcə dərinləşir. Cari ilin iyul ayından Bolqarıstana gündəlik qaz nəqlinin 2,6 milyon kubmetrə çatdırılması da bunu təsdiq edir. İlin sonuna qaz ixracının təxminən 600 milyon kubmetr olacağı proqnozlaşdırılır.

IGB interkonnektorunun kommersiya fəaliyyətinə başlaması oktyabr ayına planlaşdırılır. Bu, Bolqarıstan, ümumilikdə isə Cənub-Şərqi Avropanın enerji təchizatına sanballı töhfə verəcək. Belə ki, IGB layihəsi Bolqarıstan və Cənub-Şərqi Avropa regionu üçün tədarük təhlükəsizliyinin artırılması və təbii qaz mənbələrinin şaxələndirilməsinin təmin edilməsində mühüm əhəmiyyət daşıyacaq. Regional səviyyədə IGB Bolqarıstan bələdiyyələri və hələ qoşulma imkanı olmayan regionlar üçün qazötürücü şəbəkəyə çıxışı təmin edəcək.

Bolqarıstanın iqtisadiyyat və sənaye naziri Nikola Stoyanovla söhbət zamanı "Cənub qaz dəhlizi"nin genişləndirilməsi çərçivəsində Bolqarıstana əlavə qaz həcmlərinin tədarükü perspektivləri də nəzərdən keçirilib. Nazir TAP-ın genişləndirilməsi mərhələsində əməkdaşlığa marağını ifadə edib.Bu isə etibarlı tərəfdaşlığın daha bir ifadəsidir.

Ölkəmizin Xəzər dənizinin külək enerjisi potensialı, elektrik enerjisi və hidrogenin istehsalı və ixracı ilə bağlı planları, "yaşıl enerji"nin Avropaya ixrac perspektivləri, eləcə də enerji sahəsində digər istiqamətlər üzrə əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsinin aparılması da Azərbaycan-Bolqarıstan tərəfdaşlığının gələcəyə daha inamla istiqamətləndiyindən xəbər verir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Talış-Tapqaraqoyunlu-Qaşaltı Qaraqoyunlu-Naftalan avtomobil yolunda işlər sürətlənir

**Uzun müddət düşmən tərəfindən dağıdılmış infrastrukturun yenilənməsi 44 günlük Vətən müharibəsindən sonra dövlətin ən çox diqqət yetirdiyi məsələlərdəndir. Məhz bunun nəticəsidir ki, artıq müharibə gedən ərazilərin bir çoxunda yol infrastrukturu yenilənərək, istifadəyə verilmişdir.**



Bunlardan biri də Talış-Tapqaraqoyunlu-Qaşaltı Qaraqoyunlu-Naftalan yoludur ki, burada bəzi inşaat işləri artıq başa çatdırılmışdır. Prezident İlham Əliyevin 2021-ci il 3 oktyabr tarixli sərəncamı ilə yenidən qurulan yolun bir hissəsi Goranboy rayonu ərazisindən keçir. Bu da həmin bölgənin iqtisadi inkişafına müsbət təsir göstərəcək. Elə buna görə də Goranboy Rayon İcra Hakimiyyətinin rəhbərləri tez-tez yolda aparılan inşaat işləri ilə maraqlanır, işin nəzərdə tutulan vaxtda başa çatdırılmasına yardımçı olurlar.

Bu günlərdə rayon icra hakimyyətinin başçısı Məhərrəm Quliyev yenidən tikilməkdə olan avtomobil yolunun Tapqaraqoyunlu hissəsinə baxış keçirmiş, sonra burada əhali ilə görüşmüşdür.

Aparılan söhbətlər zamanı yolun yaşayış məntəqəsinin mərkəzindən keçən hissəsində fərdi yaşayış evlərinin və sosial obyektlərin tikintisi zamanı kəndin inkişaf planına uyğunlaşdırılmasının vacibliyi bildirilmiş, müvafiq məsləhətlər verilmişdir. Qeyd olunmuşdur ki, vətəndaşların istifadəsinə veriləcək yolun Tapqaraqoyunlu kəndindən keçməsi ilə Talış-Suqovuşan yoluna həm də Naftalan şəhərindən getmək mümkün olacaq.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## İndiyədək mavi yanacaq almayan kəndlər qazlaşdırılır



**Şimal bölgəsində son illər kəndlərin qazlaşdırılması prosesi genişlənib. Qubada bu sahədə indi də işlər görülməkdədir.**

Rayonun Cimi kəndində ilin əvvəllərindən qaz çəkilişinə başlanılıb. Dağlıq ərazidəki kəndə gələn qaz xəttinin çəkilişi artıq başa çatıb. Hazırda evlərə qaz xətləri çəkilir.

Bu günlərdə "Azəriqaz" İstehsalat Birliyinin nümayəndələri Cimi kəndində olub. Əhalinin problemləri ilə yaxından tanış olan nümayəndələr qışın Cimi kəndində sərt keçdiyini nəzərə alaraq çəkiliş imkanlarını genişləndiriblər. Belə ki, digər ərazilərə nisbətən Cimiyə qış daha tez gəlir. Qarşıdan gələn soyuq və qarlı havada işləmək çətin olduğu üçün xətlərin çəkilişi sürətlənib.

Daha sonra nümayəndələr Barlı qəsəbəsi və Hacıqaib kəndində yeni salınmış yaşayış massivlərində də olublar. Qazlaşdırma işlərinin gedişatı ilə tanış olduqdan sonra ictimaiyyət nümayəndələri ilə görüş keçirilib.

Barlı qəsəbəsi və Hacıqaib kəndinin yeni salınmış yaşayış massivlərində işləri sentyabr ayının sonlarınadək bitirmək planlaşdırılıb. Cimi kəndində isə qazlaşdırma işlərinin ilin sonunadək başa çatdırılması nəzərdə tutulur. Bildirilib ki, yaxın gələcəkdə Qubanın mavi yanacaq almayan digər yaşayış məntəqələri də qazlaşdırılacaq.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Üzümçülər yüksək göstəriciyə nail olacaqlarına əmindirlər

**Üzümçülük Şəmkir rayonunun iqtisadiyyatında əsas yerlərdən birini tutur. Odur ki, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinə uyğun olaraq rayonda üzümçülüyün daha da inkişaf etdirilməsi və emal sənayesinin yaradılması istiqamətində qarşıya qoyulan tədbirlər uğurla həyata keçirilir.**

Rayonda mütəmadi olaraq yerli sahibkarlarla görüşlər keçirilir, təsərrüfatlarda mövcud problemlərin aradan qaldırılması üçün tədbirlər görülür. Bu görüşlərdə üzümçü fermerlər dövlətimizin onlara göstərdiyi diqqət və qayğıdan razılıq edərək, bu gəlirli sahənin inkişafına maraq göstərdiklərini, üzüm sahələrinin daha da genişləndirilməsini, məhsuldar sortlar yetişdirilməsini və ixracyönümlü istehsalın artırılması üçün əllərindən gələni əsirgəmədikləini bildirirlər.



Keçən il 33286,3 ton məhsul əldə edən fermerlər cari ildə bu göstəricinin bir qədər çox olacağını deyirlər. Artıq bir neçə gündür plantasiyalarda üzüm yığımına başlanılıb. İlkin göstəricilər ürəkaçandır. Hər hektardan əldə edilən məhsuldarlıq onu deməyə əsas verir ki, cari ildə rayonda 35 min tondan çox üzüm istehsal olunacaq.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

## Bu ilin 8 ayında DSMF-nin xərcləri 202 milyon manat çox olub

**Sosial sığorta daxilolmaları son 8 ayda proqnoza nisbətən 2,8 faiz və ya 81 mln. manat artıb.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin 8 ayında proqnozla müqayisədə 7,6 faiz və ya 267 mln. manat çox olmaqla 3 mlrd. 780 mln. manat təşkil edib.

Fondun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları artmaqda davam edib. Bu daxilolmalar yanvar-avqust aylarında proqnoza nisbətən 2,8 faiz və ya 81 mln. manat artaraq 2 mlrd. 948 mln. manat olub. DSMF-nin son 8 ayda xərcləri isə ötən ilin müvafiq dövrünə nisbətən 6,2 faiz və ya 202 mln. manat artaraq 3 mlrd. 467 mln. manata çatıb.



## Pambıqçılıq müasir üsullarla inkişaf etdirilir

**Dövlətin aqrar siyasətində özünü açıq büruzə verən amillərdən biri müasir dünya təcrübəsinin və biliklərin tətbiqində fermerlərə dayaq olmaqdır. Bu baxımdan pambıqçılığın inkişafında fermerləri savadlandırmaq, yüksək məhsula nail olmaq üçün, demək olar ki, əksər rayonlarda tədbirlər keçirilir. Fermerlər zəruri məlumatlarla təmin edilirlər. O cümlədən pambıq sahələrində zərərli orqanizmlərə qarşı mübarizə tədbirlərinin vaxtında və keyfiyyətlə həyata keçirilməsi üçün fermerlər vaxtında məlumatlandırılır və müxtəlif mübarizə üsulları ilə tanış olurlar.**

Hamı yaxşı bilir ki, pambıqçılıqda yüksək və keyfiyyətli məhsul almağın başlıca şərtlərindən biri becərmə zamanı zərərverici, xəstəlik və alaq otlarına qarşı vaxtında, düzgün və səmərəli mübarizə tədbirlərinin aparılmasıdır. Bizim pambıqçılar əsasən pambıq sovkası, mənənə, tor və fır gənəsi kimi ziyanvericilərdən əziyyət çəkirlər.

Qeyd etmək lazımdır ki, cari ildə bu günədək pambıq sovkasına qarşı 77942 hektar sahədə müşahidə, 64482 hektar sahədə sirayətlənmə, 5154 hektar sahədə bioloji, 58033 hektar sahədə kimyəvi mübarizə aparılmışdır. Bundan başqa, digər zərərvericilərə qarşı 45543 hektar sahədə müşahidə, 39870 hektar sahədə sirayətlənmə, 38139 hektar sahədə kimyəvi mübarizə təşkil edilmişdir. Bioloji mübarizə zamanı pambıq sovkasının təbii düşməni olan trixoqrammadan istifadə edilmişdir.

Belə maarifləndirici tədbirlərin zamanında həyata keçirilməsində Aqrar Xidmətlər Agentliyinin Bitki Mühafizəsi və Fumiqasiya (zərərsizləşdirmə) Mərkəzi xüsusi rol oynayır. Belə ki, mərkəzin mütəxəssisləri pambıq sahələrində zərərli orqanizmlərə qarşı mübarizə tədbirlərinin vaxtında və keyfiyyətlə aparılması məqsədilə fermerlər üçün mütəmadi olaraq təlimlər keçirir və zəruri maarifləndirici materialları zamanında paylayırlar.

Mübarizə tədbirlərinin gecikdirilməsi ciddi fəsadlara səbəb olur, məhsuldarlığın artmasına ağır zərbə endirir. Məsələn, pambığın əsas zərərvericisi olan pambıq sovkası torpağın 4-10 sm dərinliyində pup fazasında qışlayır. Aprelin axırları - may ayının əvvəllərində puplardan kəpənəklər uçmağa başlayır. Oktyabrın axırlarına qədər uçan kəpənəklərə təsadüf edilir. Bir dişi kəpənək 15-18 gün ərzində 500-3000-ə qədər yumurta qoyur və bir mövsümdə 3 dəfə nəsil verir. O, əsasən qönçə, çiçək, qoza başlanğıcı və qozalara zərər vuraraq məhsulun əhəmiyyətli dərəcədə azalmasına səbəb olur.

Kənd Təsərrüfatı Nazirliyi hətta məhsul yığımı ərəfəsində mövcud vəziyyəti dəyərləndirmək üçün pambıqçılıq rayonlarında regional müşavirələr keçirir."Pambıqçılıqda mövcud vəziyyət və məhsul yığımına hazırlıq" mövzusunda növbəti regional müşavirə bu yaxınlarda Salyan rayonunda keçirilmişdir.

Salyan rayonunda keçirilən növbəti regional müşavirədə 2022-ci il üzrə pambıqçılıqla bağlı işlərin həyata keçirilməsi məqsədilə kompleks tədbirlər planının hazırlandığı və görülməli işlərin dəqiq icra müddətlərinin müəyyən edildiyi bildirilmişdir. Bu ilin əvvəlində müvafiq nazirlik və dövlət qurumlarının və fermerlərin iştirakı ilə Salyan rayonunda ümumrespublika müşavirəsi keçirilmiş və fermerlerə dəstək üçün ciddi addımlar atılmış, müvafiq tapşırıq və tövsiyələr verilmişdir.

Onu da bildirək ki, bu sahənin inkişafı Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Dövlət başçısının tövsiyəsinə uyğun olaraq fermerlərin maraqlarını təmin edən ciddi addımlar atılır. Məsələn, xam pambığın alış qiymətinin cari ildə ikinci dəfə 50 AZN və ümumilikdə 100 AZN artırılaraq, xam pambığın hər tonuna görə 1-ci növ üçün 800 AZN, 2-ci növ üçün 780 AZN, 3-cü növ üçün 740 AZN, 4-cü növ üçün 700 AZN müəyyən edilməsi barədə razılıq əldə edilmişdir. Xam pambığın alış qiymətinin hər tona görə əlavə 100 AZN qaldırılması cari ildə pambıq istehsalı ilə məşğul olan fermerlərin 30 milyon AZN-ə yaxın əlavə gəlir əldə etməsinə imkan verəcək.

Bu il xarici mütəxəssislərin iştirakı ilə Bərdə, Tərtər, Goranboy, Yevlax, Ağcabədi, Saatlı və İmişli rayonlarında yerli fermerlərin pambığın becərilməsində üstünlük verdikləri aqrotexniki tədbirlərin səmərəliliyinin monitorinqləri keçirilmiş, zərərli orqanizmlərlə mübarizədə tirəli əkinlərin daha səmərəli olduğu müəyyənləşdirilmişdir. Belə regional müşavirələrdə fermerlərə alaq otlarına qarşı herbisidlərdən istifadə ilə paralel kultivasiya və kətmənləmə işlərinin sürətləndirilməsi, stress amillərinin aradan qaldırılması üçün yarpaq gübrələrinin və digər düzənləyici qidaların verilməsinin vacibliyi bir daha xatırladılır.

Bir rayonda müşavirə olanda oraya bütün qonşu rayonların fermerləri dəvət edilir, ciddi təcrübə mübadiləsi aparılır və sahələrə birgə baxış keçirilir. Bu günədək keçirilmiş regional müşavirələrdə 1000-ə yaxın pambıqçı fermer iştirak etmişdir. Fermerlərin vaxtında maarifləndirilməsi məhsuldarlığın artmasına, onların güzəranının ciddi yaxşılaşmasına təkan veirir. Bu tədbirlərin davamlı aparılması isə müasir təcrübənin sürətlə yayılmasına imkan yaradır, fermerlərin əminliyini artırır.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Gömrük Akademiyasında tələbələrlə görüş

Sentyabrın 15-də Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini müvəqqəti icra edən, gömrük xidməti general-leytenantı Şahin Bağırov yeni tədris ilinin başlanması ilə əlaqədar olaraq Dövlət Gömrük Komitəsinin Akademiyasında (DGKA) tələbələr və valideynlərlə görüşüb.



Birinci kurs tələbələrini və onların valideynlərini təbrik edən Şahin Bağırov Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsilin inkişafı, müasir standartlara uyğun şəkildə qurulması istiqamətində mühüm islahatların həyata keçirildiyini bildirib.

DGKA-nın qısa müddət ərzində inkişafına, məzmun və müasir üsulların tətbiqi baxımından tədrisin günün tələbləri səviyyəsində qurulmasına xüsusi diqqət göstərildiyi vurğulanıb. Şahin Bağırov akademiyada tələbələrin bilikli və ixtisaslı geniş sahəvi mütəxəssislər, layiqli vətəndaş kimi yetişmələri üçün imkanların səfərbər olunacağını, onların asudə vaxtının səmərəli təşkili, fərdi bacarıqlarının inkişaf etdirilməsi istiqamətində zəruri addımların atılacağını diqqətə çatdırıb.

Sonra qəbul zamanı yüksək bal toplayan 1-ci kurs tələbələrinə tələbə kartları təqdim edilib.

Görüşdə çıxış edən valideynlər akademiyada yaradılan şəraitə, tələbələrə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə təşəkkürlərini ifadə ediblər.

Qeyd edək ki, bu il 5 ixtisas üzrə 140 tələbə akademiyada təhsil almaq hüququ qazanıb.

# Türkiyənin ölkəmizdəki səfirliyində Bakının daşnak-bolşevik işğalından azad edilməsinin 104-cü ildönümü qeyd olunub

**Sentyabrın 15-də Qafqaz İslam Ordusu tərəfindən Bakının daşnak-bolşevik işğalından azad edilməsinin 104-cü ildönümü münasibətilə Türkiyənin Azərbaycandakı səfirliyində tədbir keçirilib.**




AZƏRTAC xəbər verir ki, tədbir iştirakçıları əvvəlcə Bakının Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad olunmasını əks etdirən rəsm sərgisi ilə tanış olublar.

Sonra Azərbaycan və Türkiyə şəhidlərinin xatirəsi birdəqiqəlik sükutla yad edilib, iki ölkənin dövlət himnləri səsləndirilib.

Tədbirdə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, TÜRK PA-nın Baş katibi Mehmet Süreyya Er, Milli Məclisin deputatları və digər qonaqlar iştirak ediblər.

Mərasimdə çıxış edən səfir Cahit Bağçı Türkiyə-Azərbaycan qardaşlığından danışıb, 15 sentyabr tarixinin əhəmiyyətindən söz açıb.

"Bu gün Bakının işğaldan azad edilməsinin 104-cü ildönümüdür, Azərbaycan və Türkiyə üçün çox vacib və tarixi gündür" deyən diplomat bildirib ki, 1918-ci ildə Nuru paşanın gəlişi ilə azərbaycanlı gənclər, Azərbaycan Silahlı Qüvvələri birləşərək Bakını daşnak-bolşevik işğalından azad ediblər.



İkinci Qarabağ müharibəsindən danışan Cahit Bağçı deyib: "44 günlük Vətən müharibəsində iştirak edən azərbaycanlı gənclərin çoxu Qarabağı görməyiblər. Azərbaycan 30 illik işğala 44 gündə son qoydu. Bir neçə gün əvvəl sərhəddə erməni təxribatı baş verdi, şəhidlərimiz oldu, Allah onlara rəhmət eləsin. Lakin Azərbaycan Ordusu düşmənə növbəti dəfə "dəmir yumruğ"un gücünü göstərdi.

O əlavə edib ki, rəsm sərgisi Qafqaz İslam Ordusunun yaddaşlarda qalması baxımından mühüm əhəmiyyətə malikdir.

Sonra çıxış edən Milli Məclisin deputatı Anar İskəndərov 15 sentyabr hadisələrinin tarixindən danışıb. O bildirib: "O vaxt Nuru paşa ölkəmizdə coşqu ilə qarşılandı. Azərbaycan türk qardaşlarını xilaskar kimi görürdü. Dünya tarixində heç bir millət başqa dövlətin müstəqilliyi uğrunda döyüşməyib. Amma türklər qardaşlarımız olduqları üçün onlar bizim suverenliyimizə görə canlarından keçdilər. Eynilə azərbaycanlılar da Çanaqqala savaşında öz qardaşlarına kömək ediblər".

O bildirib ki, Azərbaycan Türkiyəni hər zaman öz yanında görüb. Bunun ən bariz nümunəsi Vətən müharibəsində oldu. Şuşa Bəyannaməsi isə Azərbaycan-Türkiyə qardaşlığını daha da möhkəmləndirdi.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva qeyd edib ki, 104 il əvvəl türk və Azərbaycan əsgərləri çiyin-çiyinə tarix yazdılar. Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu Azərbaycana gələrək Bakını işğaldan azad etdi.

"Bakının azad olunması Azərbaycan-Türkiyə qardaşlığının möhkəmlənməsində müstəsna rol oynadı. Son dövrləri də nəzərə alsaq görərik ki, iki ölkə bir-birinə hər zaman dəstək verib. Beynəlxalq təşkilatlarda da dövlət və hökumət başçıları Azərbaycan və Türkiyənin maraqlarını ilk sıraya qoyurlar", - deyə Günay Əfəndiyeva vurğulayıb.

O, Azərbaycan və Türkiyənin ərazi bütövlüyü uğrunda şəhid olanları yad edərək bildirib: "Bir neçə gün əvvəl ermənilərin təxribatı nəticəsində 50 hərbçimiz şəhid oldu. Allah onlara rəhmət eləsin".

Milli Məclisin deputatları Aydın Mirzəzadə, Hikmət Babaoğlu, Ramil Həsən 15 sentyabr tarixinin əhəmiyyətindən danışıb, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkənin qardaş Türkiyə olduğunu, Türkiyə və Azərbaycan prezidentlərinin bütün beynəlxalq platformalarda bir-birini hər zaman müdafiə edib dəstəklədiklərini qeyd ediblər. Deputatlar Şuşa Bəyannaməsinin mühüm əhəmiyyətini bir daha diqqətə çatdırıblar.

Türkdilli Ölkələrin Parlament Assambleyasının (TÜRK PA) Baş katibi Mehmet Süreyya Er çıxışında deyib ki, bu gün çox əhəmiyyətli bir tarixi qeyd edirik. Çünki sentyabrın 15-də Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusu Bakını erməni-daşnak dəstələrindən azad edib.

Müştərək tariximizin qürurlu hadisələrlə zəngin olduğunu bildirən baş katib qeyd edib: "Türk dövlətləri dünyada böyük gücə sahibdirlər. Onlar bir-birinə dəstək verərsə, böyük güc formalaşdıra bilərlər. Hazırda türk dünyasının birliyi böyük əhəmiyyət kəsb edir".

Mehmet Süreyya Er diqqətə çatdırıb ki, hazırda daha çox Türkiyə-Azərbaycan əməkdaşlığı gündəmdədir. İstərdik ki, digər türk dövlətləri də bu birliyə daxil olsun.

Xəzər Universitetinin Tarix və Arxeologiya departamentinin müdiri dosent Telman Nüsrətoğlu 15 sentyabr hadisələri və Azərbaycan-Türkiyə əlaqələrinin tarixi haqqında sənədləri təqdim edib. Cənubi Qafqazda ermənilərin yerləşdirilməsi haqqında danışıb. Həmçinin Osmanlı-Azərbaycan münasibətlərinə nəzər salıb.

Tədbir "Qurani-Kərim"in tilavəti və şəhidlərin ruhuna duaların oxunması ilə başa çatıb.

# İtaliya saytı ermənilərin işğal dövründə xarabalığa çevirdikləri Ağdam şəhərindən yazıb

**İtaliyanın "Il Giornale" qəzetinin "Insideover" analitik-informasiya portalında baş redaktor Matteo Karnielettonun Azərbaycanın işğaldan azad olunmuş ərazilərinə səfəri ilə bağlı təəssüratlarını qələmə aldığı məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə işğaldan azad olunmuş ərazilərimizə, o cümlədən Gəncəyə və Ağdama səfəri ilə bağlı təəssüratlarını bölüşən italiyalı jurnalist bildirir: "Gəncədə dağılmış evləri sanki gözətçi kimi qoruyan uşaq burada müharibənin, dolayısı ilə ölümün həyatın ilk günlərindən sadiq yol yoldaşı olduğunu insana xatırladır. Şəhərin mərkəzində yerləşən memorial kompleksin içərisində tamamilə dağılmış üç ev var. Həmin evlər 2020-ci il müharibəsi zamanı oktyabrın əvvəlində Ermənistandan atılan "Toçka-U", "Smerç" və "Skad" raketləri ilə vurulub. Bu hücumların onlarca qurbanı olub. Onların arasında qadınlar və uşaqlar da var. Həlak olanların şəkilləri evlərinin qarşısında böyük lövhəyə vurulub. Sanki əbədi olaraq buraya nəzarət edəcəklər. Bu gün memorial kompleksə daxil olan hər kəs artıq orada olmayan, hər yerdə və istənilən vaxt hər kəsi vura biləcək müharibənin qəddarlığının rəmzi kimi həmin insanların rəsmlərdəki baxışları ilə qarşılaşır".

Ağdama səfəri zamanı şəhərin küçələrinin hər küncündə münaqişənin ağır yaralarını müşahidə etdiyini vurğulayan Matteo Karnieletto yazır: "Həlak olan əsgərlərin şəkilləri... Onların bəziləri çox gənc, 2001-ci il təvəllüdlüdür. Ağdamda - "Qafqazın Xirosiması"nda müharibə hər şeyi məhv edib. Hələ 1993-cü ilin iyulunda şəhərdə ağır döyüşlər olub. Döyüş əməliyyatları başa çatdıqdan sonra isə erməni qüvvələri heç kimin geri qayıtmaması üçün evləri yandırıb və ya partladıblar. Heç bir əsər-əlamət qalmasın deyə Azərbaycan əsilli sakinlər oradan qovulub. Şəhər təxminən otuz ildən - 2020-ci ildəki müharibədən sonra Azərbaycanın nəzarətinə keçib".

İtaliyalı jurnalist fikirlərini davam etdirərək bildirir: "Ağdam şəhərinə daxil olarkən bizi kabus kimi bir yer qarşılayır. Evlər dağıdılıb, onlardan heç əsər-əlamət də qalmayıb. Ərazidə minatəmizləmə əməliyyatları davam etdirilir. İndiyədək 7 mindən çox minanın zərərsizləşdirildiyi bildirilir. Şəhərə getmək üçün piyada yolları istisna olmaqla, dar cığırla hərəkət edirdik. Görünür ki, minatəmizləmə əməliyyatları uzun müddət çəkəcək. Çünki burada partlamamış hərbi sursatlar çoxdur".









Ermənistana qarşı müharibədə həlak olanların məzarlarına baş çəkdiyini deyən Matteo Karnieletto qeyd edir ki, şəhid olanların çoxu iyirmi yaşlarındadır. O bildirir ki, erməni işğalı zamanı onların məzarları qazılıb və meyitləri oğurlanıb. 2020-ci ildə Azərbaycan bu əraziləri işğaldan azad etdikdən sonra onların ailə üzvləri çoxunun məzarda olmayan cəsədlərini axtarmaq üçün geri qayıdıblar. Məzarların üzərinə xatirə şəkli, bayraq və güllər qoyublar. Ərazidə insanların dəfn edildiyini göstərən çoxlu çuxurlar var.

Məqaləsində Ağdamda bərpa və yenidənqurma işlərinin aparıldığını vurğulayan italiyalı jurnalist qeyd edir: "Ağdamda yavaş-yavaş yeni tikililər peyda olur. Burada ən mühüm mədəni və dini obyektlər bərpa edilir. Minarələri uzun müddət ermənilər tərəfindən gözətçi qülləsi kimi istifadə edilən, onilliklər boyu tövlə kimi istifadə olunan məscid bunlardan biridir. O, 1868-1870-ci illər arasında tikilib və hazırda Heydər Əliyev Fondu tərəfindən təmir edilir. Ağdama həyatın bərpası cəhdlərinə baxmayaraq, görünən odur ki, normal vəziyyətə qayıtmaq hələ uzaqdadır".

# Azərbaycan-Meksika tərəfdaşlığı möhkəmlənir





**Qədim sivilizasiyanın daşıyıcılarından biri olan Meksika məsafəcə ölkəmizdən uzaqda yerləşsə də, Azərbaycanla əməkdaşlıq sahələri gündən-günə genişlənməkdədir. Hər iki ölkəni bir-birilə bağlayan mühüm cəhətlərdən biri azadlıqsevər xalqlara, zəngin mədəniyyətə və əsrarəngiz fauna və floraya malik olmalarıdır. Mexiko və Bakı şəhərləri arasında 12,6 min kilometr məsafə olmasına baxmayaraq, dostluq telləri onları daha da yaxınlaşdırır.**

Hazırda Meksika Birləşmiş Ştatları dünyanın iqtisadi və siyasi xəritəsində özünəməxsus yer tutur. O, müstəqil dövlətçiliyin inkişafı sahəsində bir çox nailiyyətlər qazanmışdır. Meksika həm də dünya bazarında böyük tələbata malik mühüm kənd təsərrüfatı və sənaye məhsullarının tədarükçüsü kimi çıxış edir.

Ölkə ərazisində zəngin faydalı qazıntı yataqlarının olması sürətli iqtisadi inkişaf üçün əlverişli zəmin yaradır. Bu ölkə qızıl və gümüş ehtiyatlarına görə dünyada qabaqcıl yerlərdən birini tutur. Meksikanın iqtisadi infrastrukturunun Azərbaycan ilə oxşarlığı ondan ibarətdir ki, ikisi də qabaqcıl neft ölkələrindəndir. O, neft hasilatına görə qərb yarımkürəsində üçüncü, dünyada isə yeddinci yeri tutur. Dövlətə məxsus olan yerli "Pemex" kompaniyası dünyada neft hasil edən ən iri şirkətlərdən biridir. Ölkə iqtisadiyyatında qeyri-neft bölməsi də inkişaf etdirilir.

Meksikada istehsal olunan ərzaq məhsulları dünyanın müxtəlif guşələrində geniş alıcı kütləsinə malikdir. O, bütün sanitar sertifikatlara malik olan 5 ölkədən biridir. Belə bir status dünyanın 160 ölkəsinə məhsul ixrac etmək üçün əlverişli imkan yaradır. Meksikada istehsal olunmuş heyvan və bitki mənşəli 18 növ ərzaq məhsulları dünya bazarlarına çıxarılır. Bu ölkə ərzaq məhsullarının istehsalına görə dünyada 12-ci yeri tutur. Hesablamalara görə, Meksika 2050-ci ildə dünyanın 7-ci iqtisadiyyatına malik ölkə olacaqdır. Meksika bir sıra ölkələrlə imzalamış olduğu 12 azad ticarət sazişi sayəsində yüz milyonlarla əhalinin yaşadığı 46 ölkənin bazarına imtiyazlı giriş əldə etmişdir. Bunların arasında ən mühüm yeri azad ticarət haqqında ABŞ və Kanada ilə bağlanmış "Şimali Amerika sazişi" tutur. Mexiko eyni zamanda beynəlxalq ticarət sahəsində iştirakı genişləndirmək məqsədilə Kolumbiya, Peru və Çili ilə birgə regional "Sakit okean alyansı" adlı təşkilat da yaratmışdır.

Ölkənin iqtisadi və mədəni həyatında turizm əhəmiyyətli rol oynayır. Belə ki, Meksika dünyanın ən çox ziyarət olunan 10 ölkəsindən biridir. Ölkəyə gələn turistlərin əksəriyyəti isə ABŞ və Kanada vətəndaşlarıdır. Bu sahə dövlət xəzinəsinə xeyli miqdarda xarici valyuta gətirməklə yanaşı, həm də ölkənin dünyada daha çox tanınmasına müsbət təsir göstərir. Məhz turistlərin sayının xeyli artması sayəsində ölkə sərnişin gəmilərinin sayına görə də dünyada birinciliyi qoruyub saxlayır.

Hər il ölkəyə 37 milyon turist gəlir. Turizmdən gələn gəlir ümumi daxili məhsulun 9 faizini təşkil edir, dünya romantik turizminin isə 23 faizi Meksika turizminin payına düşür. Dünyada lüks turizmə görə isə Meksika birinci yerdədir.

Meksika postsovet respublikaları ilə əlaqələrə, xüsusilə Cənubi Qafqaz regionuna və onun aparıcı ölkəsi olan Azərbaycan ilə əməkdaşlığa böyük diqqət yetirir.

Meksika Azərbaycanın dövlət müstəqilliyini 1991-ci ilin dekabrında tanımışdır. İki ölkə arasında diplomatik münasibətlər isə 1992-ci ilin fevralında qurulmuşdur. Həmin vaxtdan başlayaraq, Azərbaycan və Meksika bir çox beynəlxalq məsələlər üzrə yaxın mövqelərdən çıxış edirlər. 2008-ci ildə Azərbaycanın Meksikada, 2014-cü ildə isə Meksikanın ölkəmizdə səfirlikləri açılmışdır. O vaxtdan bəri iki ölkə arasında siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələr inkişaf edir.

Qarşılıqlı siyasi əlaqələr yüksələn xətlə inkişaf edir. Hər iki ölkənin parlamentlərində qarşılıqlı əməkdaşlıq üzrə parlamentlərarası işçi qrupları fəaliyyət göstərir. 2012-ci ildə Meksika Senatının qərarı ilə Meksika Xocalı soyqırımını tanıyıb, Mexiko şəhərində Xocalı soyqırımına abidə ucaldılıb.

Son illər iki ölkə arasında münasibətlərdə yüksəliş müşahidə olunur. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi 10 dəfədən çox artmışdır. Bu əlaqələr Azərbaycan mədəniyyətinin Latın Amerikasında təbliği ilə yanaşı, erməni təcavüzü ilə üzləşmiş xalqımızın haqq səsinin dünyaya çatdırılması işinə də böyük təkan verir.

1992-2014-cü illər ərzində ikitərəfli ticarətin orta illik həcmi 2,4 milyon dollar təşkil edib ki, bu da 2015-2021-ci illərdə artaraq 36,6 milyon dollara çatıb. 2022-ci ilin yanvar-iyul ayları ərzində isə ikitərəfli ticarət dövriyyəsi 47,2 milyon dollara çatıb. Bu, 2021-ci ilin eyni dövrü ilə müqayisədə 8,3 faiz artım deməkdir. Artan tendensiya davam edərsə, cari ildə ikitərəfli ticarətin yeni rekorda çatacağı gözlənilir.

Azərbaycanın idxal etdiyi Meksika məhsullarına nümunə olaraq neft sənayesində istifadə olunan boru və alətləri, nəqliyyat vasitələrini, pivə və s. göstərmək olar. Azərbaycan neft sənayesində istifadə etdiyi qazma baltası və boruların 18 faizini Meksikadan idxal edir.

İki ölkə arasında qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsi üçün geniş imkanlar var. Zəngin təcrübəyə malik Meksika ilə turizm sahəsində əlaqələri inkişaf etdirmək Bakı üçün də faydalıdır. Bu sahədə əlaqələrin qurulması iki ölkə xalqlarının daha da yaxınlaşmasına müsbət təsir göstərər. Azərbaycan ilə Meksika arasında turizm sahəsində təcrübə mübadiləsinin ikitərəfli münasibətlərə töhfə verməsi və pandemiyadan sonra turizmin bərpası istiqamətində atılan addımlar bu il avqustun 29-da Azərbaycan Dövlət Turizm Agentliyində Meksika səfiri ilə keçirilən görüşdə müzakirə edilib.

Təkcə elə bu il ərzində Meksikanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Xuan Rodriqo Labardini Flores Labardini iqtisadi və mədəni əməkdaşlıq layihələrinin araşdırılması, turizm imkanlarını öyrənmək məqsədilə Lənkəran, Qəbələ, Neftçala, Quba rayonlarında olmuş, yerli icra hakimiyyəti orqanlarının rəhbərləri ilə görüşlər keçirmişdir.

Hazırda iki ölkənin hökumətləri arasında imzalanan "Təhsil, elm, gənclər, mədəniyyət və idman sahələrində əməkdaşlıq haqqında saziş"ə uyğun fəaliyyət davam etdirilir.

Hər iki ölkədə Azərbaycan və Meksikanın zəngin mədəniyyətlərinin təqdim edilməsi məqsədilə də bir sıra tədbirlər keçirilir. Bu cür tədbirlər sırasında Meksika rəssamlıq nümunələrinin yalnız Bakıda deyil, eyni zamanda Azərbaycanın digər şəhərlərində nümayiş etdirilməsini göstərmək olar. İdman sahəsində də əlaqələr inkişaf edir.

Möhkəm zəminə əsaslanan Azərbaycan-Meksika əməkdaşlığı artıq genişlənərək tərəfdaşlıq səviyyəsinə yüksəlib. Hər iki tərəf həyatın bütün sahələrində qarşılıqlı münasibətləri daha da inkişaf etdirmək əzmindədir. Siyasi münasibətlərin yaxşı olması belə bir qənaətə gəlməyə imkan verir ki, yaxın gələcəkdə bu tərəfdaşlıq münasibətləri inkişaf edərək iki qitəni və iki ölkəni birləşdirən körpü rolunu oynayacaq. Bunun üçün hər iki tərəfdə möhkəm siyasi iradə və qətiyyət vardır.

***Atamoğlan MƏMMƏDLİ,***
***BDU-nun dosenti***

# MÖHTƏŞƏM OYUN, TARİXİ QƏLƏBƏ

## Ağdamın "Qarabağ" komandası Fransa "Nant"ını evinə əliboş göndərdi







**UEFA Avropa Liqası**
**G qrupu, 2-ci tur**

**"Qarabağ" (Azərbaycan) - "Nant" (Fransa) - 3:0**
**Qol:** *Ovusu Kvabena, 59, Abduallah Zubir, 65, Marko Yankoviç, 72*
**Baş hakim:** *Enea Jorgji (Albaniya)*
*Bakı. Tofiq Bəhramov adına Respublika stadionu*

Futbolda taktika, oyun planı və s. çox vacib məsələlərdəndir. Ancaq əzmkarlıq, ruh yüksəkliyi, qələbə qazanmaq inadkarlığı komandaları qarşılaşmaya daha fərqli motivasiya edir. Məhz dünən "Qarabağ" - "Nant" matçında bunun şahidi olduq. Ağdam klubu matçın 70 dəqiqəsini meydançanın fransızlara aid hissəsində tətbiq etdiyi pressinqlə qonaqların oyun qurmasına imkan vermədi. Qısa ötürmələrlə oyunu meydançanın rəqibə aid olan hissəsində keçirən ağdamlılar itirilən hər topdan sonra demək olar ki, Fransa təmsilçisinə boş zona buraxmadılar.

Doğma divarlar arasında 4-3-3 oyun formatı ilə meydançaya çıxan Ağdam klubu müdafiənin arxasına atılan toplarda və standart vəziyyətlərdə çox diqqətli oldu. İlk 20 dəqiqədə topu rəqibə verən komandamız qapısı qarşısında təhlükəli epizodlar yaşadı. Lakin ilk hissənin 25-ci dəqiqəsindən etibarən ənənəvi oyun planına dönən "Qarabağ" daha çox qısa ötürmələrə üstünlük verərək meydançanın mərkəzində "Nant"lı futbolçuları yormağı bacardı. Bununla da matç tempini tədricən artıraraq oyuna nəzarəti tam ələ aldı. Qurban Qurbanovun komandası həm toplu, həm də topsuz oyunda hazırlıqlı, ötürmələrdə daha sürətli idi.

"Qarabağ"da Qara Qarayev və Marko Yankoviç boş zonaları çox yaxşı bağladılar. Xüsusilə Yankoviç 1-ci və 3-cü zona arasında əlaqəni, balansı yaxşı qorudu. Bəli, Qara Qarayevlə Yankoviç bir-birilərini çox yaxşı idarə etdilər. Meydanda dağıdıcı funksiyanı yerinə yetirən Qara qazandığı topu tez bir zamanda Ozobiç və ya Yankoviçə çatdırdı. Monteneqrolu yarımmüdafiəçinin meydanda olması 3-cü zonada həm Kadi, həm də Zubir üçün əlavə üstünlüklər qazandırdı. Belə ki, top rəqibdə olarkən 1-ci və ya 2-ci zonada bu oyunçuların üzərilərinə çox da yük düşmədi.

Hücum xəttində yer alan Ovusu həm hücumda, həm də geri dönüşlərdə boş zonalara vaxtında düşməklə mühüm işlər gördü. İkili mübarizələrdə rəqibə çətin anlar yaşatdı. Xüsusilə cinah ötürmələrinə üstünlük verən komandamız ikili mübarizələrdə də Fransa klubundan daha güclü idi. Qapıya uzaqdan vurulan zərbələrdən sonra geri qayıdan topların hamısına "Qarabağ" futbolçuları yiyələndilər.

Top rəqibdə olarkən komanda şəklində topun olduğu zonaya çəkilməsi nəticəsində cinahlar boş qaldı. Bundan istifadə etməklə uzun diaqonal ötürmələrlə "Nant"ı azlıqda yaxalamaq olardı. Xüsusilə komandamızın heyətində Marko Yankoviçin diaqonal ötürmələri və bu keçid oyunlarında möhtəşəm performansı sayəsində Zubir və Kadiyə yaxşı fürsətlər yarandı.



Bir sözlə, "Qarabağ" meydançanın bütün zonalarında sona qədər mübarizə apardı. Bunun ardınca gələn qollar sayəsində qazanılan 3:0 hesablı qalibiyyət ölkəmizin bu həssas dönəmində azarkeşlərə təsəlli oldu. Bununla da cari mövsümdə qrup mərhələsində komandamız ilk 3 xalını qazandı.

Qeyd edək ki, G qrupunun digər matçında isə Yunanıstan "Olimpiakos"u evdə "Frayburq"a (Almaniya) 0:3 hesabı ilə uduzub.

Qarşılaşmadan sonra "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov qələbəni ordumuza və şəhidlərimizə həsr etdiklərini deyib: "Oyun haqqında çox danışmaq olar. Çünki fərqli hissələr oldu. Bizim üçün çox vacib idi ki, ilk hissədə intizamlı oynayaq. Rəqibin yaxşı hücumları var idi. Ehtiyatlı olmalı idik. Çünki rəqibin bacarıqlı oyunçuları var. Onlar ustalıqlarından istifadə edirdilər. Hər bir halda çox maraqlı bir qələbə oldu. Çünki belə böyük komandaya 3:0 hesabı ilə qalib gəlmək azarkeşləri həvəsləndirir. Hamını təbrik edirəm. İkinci hissədə sürəti artırmaq istəyirdik. Ramil oyuna sonradan çıxanda aktiv olur. Buna ehtiyac var idi. 2-ci hissədə sürətin artması vacib idi. Ona görə də ikinci hissədə Ozobiçlə Ramili əvəzlədik. Qələbəni ordumuza və şəhidlərimizə həsr edirik. Günorta saatlarında çox üzüldük. Daha 21 şəhidimizin olduğu barədə xəbər aldıq. Bəlkə də, bu, oyunda da hiss olunurdu. Hamı qalib gəlmək istəyirdi. Hamı qorxurdu ki, birdən səhv edərik. Allah ordumuzu qorusun!"

Təbriklər, "Qarabağ"!

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycanın beynəlxalq yardım fəaliyyəti qlobal sərgidə təmsil olunub

**Sentyabrın 12-14-də Tailand Krallığının paytaxtı Banqkokda keçirilmiş "Qlobal Cənub-Cənub İnkişafı Ekspo-su-2022" adlı beynəlxalq sərgidə Azərbaycanın humanitar və beynəlxalq inkişafa yardım sahəsindəki uğurlu fəaliyyəti təqdim olunub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, sərgi Birləşmiş Millətlər Təşkilatının (BMT) Cənub-Cənub Əməkdaşlığı Ofisinin (UNOSSC), BMT-nin Asiya və Sakit Okean ölkələri üzrə İqtisadi və Sosial Komitəsinin (ESCAP), eləcə də Tailand Beynəlxalq İnkişaf Agentliyinin (TİCA) birgə təşkilatçılığı ilə keçirilib.

Sərgidə ölkəmizi XİN-in nəzdində fəaliyyət göstərən Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AİDA) təmsil edib. Ölkəmizin həyata keçirdiyi beynəlxalq yardım fəaliyyəti ilə bağlı qurulmuş guşədə iştirakçılara ətraflı məlumat təqdim olunub. Bu məqsədlə hazırlanmış müxtəlif çap məhsulları Azərbaycanın COVID-19 pandemiyasına qarşı qlobal mübarizəyə verdiyi əhəmiyyətli töhfələri, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə həyata keçirilmiş mühüm beynəlxalq təşəbbüsləri, İƏT və Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün təsis edilmiş




təhsil qrantı proqramlarını, ikitərəfli və çoxtərəfli əsasda həyata keçirilmiş inkişafa yardım fəaliyyətlərini, eləcə də AİDA-nın inkişafa yardımla bağlı müxtəlif istiqamətli beynəlxalq layihələrini əhatə edib.

Sərgi çərçivəsində təşkil olunmuş ESCAP Baş Direktorlar Forumunda çıxış edən AİDA-nın rəisi Elməddin Mehdiyev Azərbaycanın yeni donor ölkəsi kimi əldə etdiyi uğurları və beynəlxalq yardım siyasəti ilə bağlı iştirakçıları məlumatlandırıb. Azərbaycanın qısa zaman çərçivəsində yardım alan dövlətdən yeni donor ölkəsinə çevrildiyi qeyd edilib. Hazırda işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işlərinə baxmayaraq, Azərbaycanın beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi beynəlxalq yardım fəaliyyətlərini davam etdirdiyi forum iştirakçılarının diqqətinə çatdırılıb.

Sərgi çərçivəsində AİDA nümayəndə heyəti mövcud ikitərəfli və çoxtərəfli əməkdaşlıqları inkişaf etdirmək, eləcə də yeni əməkdaşlıqlar qurulmasını müzakirə etmək məqsədilə bir sıra görüşlər, o cümlədən ESCAP-ın icraçı katibi xanım Armida Alisjahbana, BMT Baş katibinin köməkçisi və BMT İnkişaf Proqramının (UNDP) Siyasət və Proqram dəstəyi Bürosunun Direktoru Haolianq Şu və TİCA Baş Direktoru Ureerat Chareontoh ikitərəfli görüşlər keçirilib.

# Gürcüstan XİN Azərbaycan-Ermənistan dövlət sərhədində baş vermiş hadisələrə münasibət bildirib

**Biz Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında növbəti hərbi eskalasiyanı və qarşıdurma nəticəsində yaranmış vəziyyəti narahatlıqla müşahidə edirik. Məlumata görə, ölən və yaralananlar var.**

Bu barədə Gürcüstan Xarici İşlər Nazirliyi Ermənistan silahlı qüvvələrinin birləşmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədində törətdiyi təxribatlarla əlaqədar AZƏRTAC-ın sorğusuna cavab olaraq bildirib.

Qeyd edilib ki, tərəflərin məsələnin sülh danışıqları yolu ilə həllinə nail olmaları və münaqişənin daha da gərginləşməməsi lazımdır. Vəziyyətin gərginləşməsi bütün regionun təhlükəsizliyinə çox mənfi təsir göstərəcək.

Açıqlamada gərginliyin qarşısını almaq və dialoqun yenilənməsini təmin etmək üçün beynəlxalq ictimaiyyətin birgə səylərinin vacibliyi xüsusilə qeyd olunur.

"Gürcüstan regionda sülhün və sabitliyin bərpasında fəal iştirakını davam etdirməyə hazırdır, o cümlədən tərəflər arasında dialoqa evsahibliyi etməyi təklif edir", - deyə bildirilir.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi açıqlama yayıb

**Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində genişmiqyaslı təxribatları ilə əlaqədar həlak olmuş şəhidlərimizin dəfn mərasimləri ilə bağlı açıqlama yayıb.**

Komitənin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan açıqlamada bildirilib ki, sentyabrın 12-dən etibarən Ermənistan tərəfinin beynəlxalq hüququn fundamental norma və prinsiplərini, habelə Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında imzalanmış üçtərəfli bəyanatların müddəalarını və Brüssel danışıqlarında əldə edilmiş razılaşmaları kobudcasına pozaraq Azərbaycana qarşı törətdiyi növbəti hərbi təxribat Ermənistanın sülh müqaviləsi bağlamaqdan yayınmağa çalışdığını və bu ölkədə revanşist meyillərin daha da gücləndiyini, rəsmi İrəvanın sülhə hazır olmadığını bir daha təsdiqləyir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində olduğu kimi, Azərbaycan Ordusu bu dəfə də bu xain hücumun qarşısını aldı, düşmənə layiqli cavab verərək ona növbəti dəfə sarsıdıcı zərbələr vurdu.

Son təxribatlar nəticəsində vətənimizin bölünməzliyi uğrunda canından keçən şəhidlərimizin dəfn mərasimlərində dini şüarların səsləndirilməsinə gəlincə, müşahidələr onu göstərir ki, müəyyən kənar dairələrin təlimatlarını yerinə yetirdikləri şübhə doğurmayan bu təxribatçı qaragüruhçular qrup halında hərəkət edir, ictimai-asayişi pozmağa cəhd edir, nümayişkaranə şəkildə özlərini əsl "dindar" kimi göstərmək istəyirlər. Halbuki onların bu kimi daha çox şou təəssüratı yaradan davranışlarının nə hüquqi, nə də dini baxımdan əsası yoxdur. Digər tərəfdən, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri Nizamnaməsi"nin XVIII fəslində ("Dəfn mərasiminin təşkili və keçirilməsi zamanı hərbi ehtiramın göstərilməsi") şəhidlərimizin dəfn mərasiminin hansı formada keçirilməli olduğu açıq şəkildə göstərilib və bu qaydalarda hər hansı başqa hərəkətlərə yol verilməsi nəzərdə tutulmayıb. İslam dininə görə, dəfn mərasimləri mümkün qədər sükut içərisində keçirilməli, hətta zikrlər belə uca səslə söylənilməməlidir. Bununla bağlı İslam mənbələrində kifayət qədər faktlar vardır. Dəfn mərasimində bu cür qışqırıq salanların əməlləri eyni zamanda xalqımızın formalaşmış adət-ənənələrinə də ziddir. Ancaq həm hüquqa, həm də dini ehkamlara məhəl qoymadan dəfn mərasimlərində dini şüarlar səsləndirən həmin adamlar məlum məsələdir ki, din adından istifadə edərək idarə olunduqları dairələrin tapşırıqlarını yerinə yetirməyə çalışırlar. Əslində, bu cür din pərdəsi altında şəhidlərin dəfn mərasimindən istifadə edən qaragüruhçuların əməllərində başqa məqsəd gizlənir. Onlar hətta şəhid valideynləri və yaxınlarının çağırışlarına fikir vermədən öz mənhus və qanunazidd əməllərini davam etdirirlər. Azərbaycan xalqı bu kimi təxribatçı qrupları yaxşı tanıyır və birmənalı olaraq qətiyyətlə rədd edir. Şəhidlərin dəfn mərasimlərindən özlərinin məkrli əməlləri üçün istifadə etmək istəyənlər heç bir şeyə nail ola bilməyəcəklər.

Daxili İşlər Nazirliyinin də bu cür neqativ hallarla bağlı açıqlamasında qeyd olunduğu kimi, şəhidlərimizin dəfni zamanı ərazidə ictimai asayişin qorunmasını həyata keçirən polis əməkdaşları hər hansı bir insidentin baş verməməsi üçün yersiz səs-küy qaldıran həmin adamları oradan uzaqlaşdırmır, ancaq mərasimlər başa çatdıqdan sonra qeyd olunan təxribatçıların ətrafında müvafiq araşdırmalar aparılaraq tədbirlər görülür.

Onu da qeyd etmək lazımdır ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu istiqamətdə müvafiq dövlət qurumları ilə koordinasiyalı fəaliyyət göstərir. Belə ki, Dövlət Komitəsi yerli icra hakimiyyətləri ilə birlikdə şəhidlərimizin dəfn mərasimləri üçün din xadimlərinin iştirakını təmin etməklə yanaşı, bu istiqamətdə maarifləndirmə işini daima diqqət mərkəzində saxlayır və əməkdaşlarımız mərasimlərdə iştirak edir.

Unutmamalıyıq ki, şəhidlərimiz təkcə öz ailələri üçün deyil, hər birimiz üçün doğmadır, əzizdir. Çünki onlar canlarını vətənimizin ərazi bütövlüyü, suverenliyi, təhlükəsizliyi, vətəndaşlarımızın xoşbəxtliyi, sahib olduğumuz milli-mənəvi dəyərlərimizi yaşatmaq uğrunda fəda etmişlər. Onlara layiq olduqları ehtiramı göstərmək isə hər birimizin borcudur!

Allahdan bütün şəhidlərimizə rəhmət diləyir, ruhları qarşısında baş əyirik.

16 Sentyabr Beynəlxalq Ozon Qatının Qorunması Günüdür

# Planetimizin xilaskarı

## Ozon qatının bəşəriyyət üçün çox böyük əhəmiyyəti var



Bu gün Beynəlxalq Ozon Qatının Qorunması Günüdür. Yer kürəsini günəşin məhvedici radiasiyasından qoruyan ozon təbəqəsinin qorunması məsələsi günümüzdə prioritet məsələlərdən biridir. 1985-ci ildə BMT tərəfindən "Ozon qatının qorunmasına dair Vyana Konvensiyası" qəbul edilib və hazırda 200-ə yaxın dövlət bu konvensiyanın tələblərinin yerinə yetirilməsi məqsədilə öhdəliklər götürüb.

1994-cü ildə BMT-nin Baş Assambleyası 16 sentyabr tarixini "Beynəlxalq ozon təbəqəsinin mühafizəsi günü" elan edib. Bu gün ozon təbəqəsini dağıdan maddələrə dair imzalanan Monreal protokolunun tarixə salınması məqsədilə təyin olunub. Protokolda iştirakçılar tərəfindən öhdəlik götürülmüş hədlər, ozondağıdıcı maddələrin istehsalı və istehlakının tamamilə dayandırılması müəyyən olunub. Beynəlxalq ozon qatının qorunması gününün keçirilməsində əsas məqsəd Yer kürəsindəki canlı aləm üçün mühüm əhəmiyyət kəsb edən ozon təbəqəsinin təhlükə qarşısında olmasını dünya ictimaiyyətinin nəzərinə çatdırmaq və onun qorunmasına diqqət yönəltməkdir.

### Ozon təbəqəsinin dağılmasının mənfi təsirləri

Azərbaycan "Ozon qatının qorunması haqqında Vyana Konvensiyası"na, "Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu"na və bu protokola edilmiş düzəlişlərə dair sazişə 1996-cı ildən qoşulub. Ölkəmiz beynəlxalq müqavilələrə qoşulmaqla qlobal ekoloji problem olan ozon qatının qorunması üçün üzərinə öhdəliklər götürüb. Götürülmüş öhdəlik sənaye müəssisələri və məişətdə ozondağıdıcı maddələrlə (ODM) təchiz edilmiş cihaz və avadanlıqların, əsasən də soyuducu və kondisionerlərin ODM olmayan daha müasir texnologiyalarla əvəzlənməsindən, "yaşıl iqtisadiyyat"a mərhələli keçidin təmin edilməsindən, ODM-li cihaz və avadanlıqların ölkəyə idxalının ildən-ilə azaldılmasına, nəticədə isə tamamilə qadağan edilməsinə nail olunmasından ibarətdir.

Tərkibində freon, xlor, bromun çoxluq təşkil etdiyi qazlar əsas ozondağıdıcı maddələr hesab olunur və belə maddələrdən istifadənin azaldılması ozon qatının qorunmasında mühüm rol oynayır.

Ozon qatının dağılması həmçinin müxtəlif xəstəliklərin yaranmasına və artmasına səbəb olur. Təxminən 1970-ci ildən stratosfer ozonunun miqdarının qlobal azalması müşahidə olunur. Ozonun ümumi miqdarının azalması buzlaqların əriməsinə səbəb olur. Digər tərəfdən Yer kürəsində orta illik temperaturun 0,6 dərəcəyə qədər artması qlobal istiləşmə problemi yaradır.

1 yanvar 1989-cu ildə qüvvəyə minən Monreal protokoluna əsasən, 1987-ci ildə ozon təbəqəsini parçalayan maddələrin hazırlanması və istifadəsi qadağan olunub. Bu protokolu 127 ölkə qəbul edib.

Bildirilir ki, havanın qütblərə doğru aktiv axını ilə əlaqədar ozonun tərkibinin ən böyük qiyməti Kanada, Şimali Avropa və Rusiyanın Arktikaya yaxın hissəsində qeyd olunur. Ulduzlu yaya qədər orta en dairələr üzərində ozonun konsentrasiyası da yüksək səviyyədə qalır. Belə meteoroloji şəraitin və böyük miqdarda kimyəvi aktiv xlorun olması Antarktika qitəsi üzərindəki ozon qatının dağılmasına səbəb olur.

Ozon təbəqəsinin dağılması səbəbləri sırasında antropogen amillərin də rolu xüsusi qeyd olunur. Bu təbəqənin nazikləşməsi təhlükəsi ilk dəfə Antarktida üzərində müşahidə edilib. Tədqiqatlar göstərir ki, payızda planetin cənub yarımkürəsində Antarktida üzərindəki ozon qatında ölçüləri Afrika qitəsinin sahəsinə bərabər "deşik" əmələ gəlir. Qış vaxtı soyuq və qaranlıq hava şəraitində atmosferdə qütb stratosfer dumanları əmələ gəlir. Bu zaman təsirsiz xlor günəş işığı altında ozonla kimyəvi reaksiyaya girərək ozon qatını aşılamayan maddəyə çevrilir. Bunun nəticəsində də yazda günəş güclənir. Antarktida stratosferinin yetərincə qızdığı və beləcə də onu dünyadan təcrid edən qütb stratosfer buludlarını dağıtdığı vaxt "deşik" yenidən yox olur. Nazikləşmə ən çox 15-30 kilometr hündürlüklərdə baş verir ki, burada ozonun konsentrasiyası yüksək olur.

Qeyd edək ki, ozon qatının miqdarı dobson vahidi ilə ölçülür. Yer kürəsində ozonun orta miqdarı təxminən 300 dobsondur. Müxtəlif coğrafi sahələrdə onun qiyməti 230-500 dobson vahidi arasında dəyişir.

### Ozon qatı bərpa olunur

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin Beynəlxalq əməkdaşlıq sektorunun müdiri Fuad Hümbətov bildirir ki, Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1994-cü ildə qəbul etdiyi qətnaməyə əsasən, hər il 16 sentyabr bütün dünyada "Beynəlxalq ozon qatının qorunması" günü kimi qeyd edilir. Ozon qatının dağılmasında "antropogen faktorun" qarşısının alınması məqsədilə 1987-ci ilin sentyabr ayında Monreal şəhərində tarixi protokol imzalanıb. Bu protokola ozon qatını dağıdan maddələrin istehsal və istifadəsinin mərhələlərlə azaldılması və aradan qaldırılması üzrə tənzimlənmə tədbirləri daxil edilib. Azərbaycan da "Ozon qatını dağıdan maddələr üzrə Monreal Protokolu"na qoşularaq bu sahədə üzərinə öhdəliklər götürüb.

Fuad Hümbətov qeyd edir ki, Azərbaycanda görülmüş tədbirlər nəticəsində ozondağıdıcı maddələrdən (ODM) istifadə azalmağa doğru gedir. Sənaye müəssisələrinin modernizasiyası, texnoloji yeniliklərə əsaslanan müasir soyuducu və kondensionerlərin ölkəyə idxalının artırılması bu məqsədə xidmət edir. Hazırda Azərbaycan üzərinə götürdüyü öhdəlikləri yerinə yetirən ölkələr sırasındadır. Ölkəmizdə protokol çərçivəsində görülmüş tədbirlər nəticəsində ODM-lərdən istifadə Monreal Protokolu üzrə müəyyən edilmiş qrafikə uyğun olaraq mərhələlərlə istifadədən çıxarılıb, istehlak 271 tondan 0.016 tona qədər azaldılıb.

F.Hümbətovun sözlərinə görə, Monreal protokolunun həyata keçirilməsi nəticəsində soyuducularda, kondisionerlərdə və digər məhsullarda ozonu məhv edən kimyəvi maddələr 99 faiz azalıb: "Son elmi araşdırmalar göstərir ki, görülən tədbirlər nəticəsində 2000-ci ildən bəri ozon təbəqəsinin hissələri on il ərzində 1-3 faiz sürətlə bərpa olunur. Proqnozlaşdırılan sürətlə ozon qatı şimal yarımkürəsi və orta enliklərdə 2030-cu ilə, cənub yarımkürəsində 2050-ci ilə, qütb bölgələrində isə 2060-cı ilə qədər tamamilə bərpa olunacaq".

### Ozon təbəqəsi dağılarsa...

Ozon təbəqəsinin nazikləşməsinin yaratdığı fəsadlarla, hazırda bu təbəqənin vəziyyəti ilə bağlı AMEA-nın Coğrafiya İnstitutunun Xəzər dənizinin hidrometeorologiyası şöbəsinin müdiri, coğrafiya elmləri doktoru Səid Səfərovun fikirlərini öyrəndik.

Alim bildirdi ki, ozon təbəqəsi iki zonada - troposfer və stratosferdə özünü göstərir və stratosferin 20-40 km hündürlüyündə yerləşir. Əgər bu təbəqə yer səthində olsaydı, qalınlığı cəmi 3 mm olardı. Yəni bu, çox nazik qatdır.

Səid Səfərov bildirir ki, Yer səthi günəşin şüalandırdığı elektromaqnit dalğaları, eyni zamanda onun buraxdığı yüklü zərrəciklər seli ilə üzləşir. Əgər ozon təbəqəsi olmasaydı, yüksək tezlikli şüalanma, o cümlədən ultrabənövşəyi şüalar canlıların yaşaması üçün mümkün olmayan şərait yaradardı. Çünki bu şüalar orqanizm üçün son dərəcə təhlükəlidir. Ozon 3 atomlu oksigen molekuludur. Adi oksigen molekulunda 2 atom var, o, neytral olduğu üçün onunla nəfəs alırıq. Ozon adi halda aktiv elementdir, tez reaksiyaya girir, canlı üçün təhlükəli olur. Ultrabənövşəyi şüaların təsiri nəticəsində yuxarı təbəqədə olan oksigen atomlara parçalanır, bunlar digər molekullarla toqquşaraq ozon molekulunu yaradırlar. Ozonun əsas xüsusiyyəti ultrabənövşəyi şüaları udması və yer səthinə gəlməsinə imkan verməməsidir.

Alim deyir ki, ozon qatının mənası 1920-ci ildə kəşf olunub. Məsələn, freon qazı genişlənəndə kəskin soyuduğu üçün ondan soyuducu, kondisionerlərdə geniş istifadə olunur. Lakin onun tərkibindəki flor və xlor atmosferə atılanda yavaş-yavaş yuxarı qalxır və stratosfer təbəqəsində günəş şüaları ilə rastlaşanda oksigen atomu kimi bölünür. Nəticədə atom şəklində xlor yaranır. Bu da ozonla toqquşanda təbəqəni dağıdır, nəticədə bu qat zəifləyir.

### Ultrabənövşəyi şüalar udulmasa, yerdə heç bir canlı yaşaya bilməz

Səid Səfərov 1989-cu ildə qəbul olunan Monreal protokoluna əsasən, bəzi ölkələrin öhdəlik götürdüyünü xatırladaraq qeyd edir ki, bununla əlaqədar əksər ölkələrdə freon qazı daha az təsirli qazlarla əvəzlənib. Son vaxtlar ozonun konsentrasiyası bərpa olunmağa başlayıb. Bu, davamlı proses deyil. Təkcə freon qazı deyil, 12-13 kilometr yüksəklikdə uçan təyyarələrin buraxdığı qazlar, süni peykləri orbitə çıxarmaq üçün buraxılan raketlər, atmosferdə karbon qazının artması da ozon təbəqəsinin zəifləməsinə səbəb olur. Əsas odur ki, insanlar özlərindən asılı olan zərərləri azaltsınlar. Hansı fəaliyyətlər ki, ozon təbəqəsinin dağılmasına təsir edir, ondan imtina edilməlidir.

Şöbə müdiri vurğulayır ki, ozon təbəqəsinin nazikləşməsinin verdiyi mənfi təsirlər qlobal istiləşmə, iqlim dəyişmələrindən də kəskindir: "Bu daha dəhşətli ola bilər. Sərt ultrabənövşəyi şüalar ozon tərəfindən udulmasa, yerdə heç bir canlı qala bilməz".

Onun sözlərinə görə, troposferdəki ozon da bilavasitə yer səthində yarandığı üçün yaşam üçün ziyanlıdır. Avtomobillər, sənaye müəssisələri atmosferə zəhərli qazlar buraxırlar. Azot-dioksid isti havada - günəş şüalarının artdığı zaman parçalanır və azot-oksid yaranır. Bu zaman həm də oksigen ayrılır, o da digər oksigen molekulları ilə toqquşaraq azot yaradır. Xüsusən yay aylarında qazların konsentrasiyasının çox olduğu yerlər insan orqanizmi üçün son dərəcə ziyanlıdır. Bu qazlar insanın ağciyərini məhv edir. Bu sahədə hazırlanan müxtəlif protokolları qəbul edən ölkələrin üzərinə zərərli maddələrin atmosferə atılmasının qarşısının alınması ilə bağlı öhdəliklər qoyulub. Azərbaycan da bu sənədlərə qoşulub və bu istiqamətdə tədbirlər görür.

Deyilənlər bir daha göstərir ki, "Yer"imizi qorumaqda, iqlim dəyişmələrinin mənfi təsirlərinin qarşısının alınmasında insan amilinin rolu böyükdür. Eyni zamanda yaranan problemlərin kökündə anrtopogen amillərin ilk sırada olduğu təsdiqlənir. Yəni planetimizi zəhərləyən, təhlükə yaradan fəaliyyət istiqamətlərindən qaçmaqla bacardığımız qədər evimizi qoruya bilərik.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***





# OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# Bəşəriyyət daha bir təhlükəni də geridə qoyur

## Koronavirusa yoluxma və ölüm halları son həftədə azalıb

**Payız fəslinin gəlməsinə sayılı günlər qaldığından pandemiya ilə bağlı vəziyyət daha çox narahatlıq yaradır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) sonuncu hesabatına əsasən, ötən həftə xəstəliyə yoluxma hallarının sayı əvvəlki həftə ilə müqayisədə 28 faiz, ölüm hallarının sayı isə 22 faiz azalıb.**

Ümumilikdə həftə ərzində koronavirusa 3,1 milyondan çox yeni yoluxma halı, 11 minə yaxın isə ölüm faktı qeydə alınıb. Əsasən azalma halları və ölüm sayları Qərbi Sakit Okean, Afrika, Amerika, Cənub-Şərqi Asiya, Şərqi Aralıq dənizi və Avropa regionlarında müşahidə edilib.

### "Pandemiya başa çatır"

ÜST-ün baş direktoru Tedros Adhanom Gebreyesus Cenevrədə keçirdiyi son brifinqdə qeyd edib ki, ötən həftə COVID-19-la bağlı qeydə alınan ölüm hallarının sayı 2020-ci ilin martından bəri olan ən aşağı göstəricidir: "Pandemiyanın başa çatması ilə bağlı heç vaxt daha yaxşı nəticəyə nail olmamışıq. Ancaq görünən odur ki, pandemiya başa çatır. Finiş xətti görünəndə marafon qaçışı dayanmır. İştirakçı qalan bütün enerjisi ilə daha da çox qaçır. Biz də elə etməliyik. Finiş xəttini görsək də, indi mübarizəni dayandırmaq üçün ən pis vaxtdır".

Baş direktor bildirib ki, demək olar koronavirusla mübarizədə qalib mövqedəyik, lakin hazırkı vaxtda bu fürsətdən istifadə etməsək, daha çox ölüm, daha çox yoluxma və xəstəliyin qeyri-müəyyənlik riski ilə üzləşə bilərik. ÜST son 32 ayın sübut və təcrübələrinə əsasən, insanların həyatını xilas etmək, sağlamlıqlarını qorumaq və sosial, iqtisadi çətinliklərindən yan keçmək üçün 6 bəndlik plan hazırlayıb. Həmçinin bu plan hökumətlərin öz mübarizə siyasətlərinə ciddi nəzər salmaq, onları COVID-19 və gələcək pandemiya potensialı olan patogenlərə qarşı da gücləndirmək üçün çağırış rolunu oynayır.

2019-cu ilin sonlarında Çində meydana çıxan virus dünyada 6,5 milyona yaxın insanın ölümünə və 606 milyon insanın yoluxmasına səbəb olub, qlobal iqtisadiyyatları və səhiyyə sistemlərini sarsıdıb. Keçən dövr ərzində peyvəndlərin və müvafiq müalicə üsullarının tətbiqi ilə ölümlərin və xəstəxanaya yerləşdirilənlərin sayında kəskin azalmalara nail olunub. Keçən ilin sonlarına doğru ortaya çıxan "Omikron" variantı isə xəstəliyi mutasiyaya uğradaraq daha az ölümcül hala sala bildi. Lakin bu növün də yoluxuculuq qabiliyyəti yüksəkdir.

### Virusla mübarizə davam edir

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti Təyyar Eyvazov son açıqlamasında bildirib ki, iyundan etibarən ölkəmizdə yoluxma saylarında müəyyən artımlar olub. Son günlərdə isə yoluxma halları stabilləşib. Hətta son nəticələr onu göstərir ki, infeksiyadan sağalanların sayı yeni yoluxanların sayını üstələyir. Payız mövsümü yaxınlaşır və havalar soyuyur. Bu zaman isə təkcə COVID-19 deyil, bütün hava-damcı infeksiyalarına yoluxma faktlarında müəyyən artımlar, respirator alovlanmalar olur.

Ekspert qeyd edir ki, pandemiya təcrübəsinə nəzər salsaq, 2020-2021-ci illərdə də eyni halın yaşandığını görərik: "Havalar soyuq olduqda insanlar daha çox qapalı mühitlərdə toplanır, yaxın təmasların sayı artır, otaqların havalandırılması azalır. Digər tərəfdən isə vətəndaşlar infeksiyaya yoluxma hallarının az olduğu vaxtlarda arxayınlaşaraq fərdi qoruyucu vasitələrdən, maskadan istifadə etmir, qaydalara laqeyd yanaşırlar. Bir yandan da payız aylarında insan immunitetinin təbii olaraq zəifləməsi, ikinci tərəfdən isə vaxt keçdikcə istər vaksinasiya, istərsə də xəstəliyi keçirmə nəticəsində koronavirusa qarşı əldə olunmuş immunitetin zəifləməsi baş verir. Bütün bu faktorlar infeksiyanın ötürülməsini daha da asanlaşdırır".

Qapanma və məhdudiyyətlərə gəldikdə isə hazırda yüksək yoluxma halları olanda belə yüngül xəstələrin sayının çox, stasionar yatışların sayının az olması səbəbindən belə tədbirlərə ehtiyac görülmür. T.Eyvazov vurğulayır ki, verilən qərarlar ancaq tövsiyə xarakterlidir, yəni qabaqlayıcı tədbirlər maskanın taxılması, məsafə saxlanılması ilə bağlıdır. Yoluxma hallarının artması ehtimalı hər zaman olduğundan bu ərəfədə də diqqətli olmalı və virusla mübarizənin davam etdirildiyi unudulmamalıdır. Etinasızlığın ağır nəticələrə gətirib çıxardığına bir neçə dəfə şahid olmuşuq. Vaksinasiya əldə olunan nəticələrin əsas səbəbidir. Müvafiq dozada peyvəndlər hər kəs tərəfindən tətbiq edilməlidir.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti tabeliyindəki idarələrə tələb olunan akkumulyatorların satın alınması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 22 sentyabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili - 1263.**

***Tender komissiyası***

## BİLDİRİŞ

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Ağdam Uşaq və Ailələrə Dəstək Mərkəzinin inzibati binasının tikintisi işlərinin satın alınması məqsədilə keçirilən açıq tenderin nəticələrinə dair yekun protokola əsasən, "Şəmkir tikinti-18" ASC qalib elan edilmişdir.

Qalib təşkilatla 14.09.2022-ci il tarixdə 8 834 801.39 manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rəhbərliyi, ictimai təşkilatları və kollektivi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə əzizi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu

**FƏRİD MEHBALININ**

şəhid olması ilə bağlı kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə əzizi, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu

**FƏRİD MEHBALININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6473
Sifariş 2592
Qiyməti 40 qəpik